ZAUR
USTAC



# GÜLÜZƏNİN ŞEİRLƏRİ

♦♦♦

(Məktəbəqədər hazırlıq qrupları üçün)



Bakı-2021

**Zaur USTAC**
*(Mustafayev Zaur Mustafa oğlu)*
"Gülüzənin şeirləri" *(yenidən işlənmiş təkrar nəşr)*
Azərbaycan dilində, Bakı-2021, 114 səh.

**Elmi redaktor**: **Qurban Bayramov,**
filologiya üzrə fəlsəfə doktoru, professor,
tənqidçi - ədəbiyyatşünas

**Rəyçilər**: **Taleh Xəlilov,**
pedaqogika üzrə fəlsəfə doktoru,
AR Təhsil Şurasının üzvü.

**Ülviyyə Hüseynova,**
filologiya üzrə fəlsəfə doktoru,
BAU və ADU-nun baş müəllimi.

**Redaktor və texniki tərtibat işi:**
**Ayətxan Ziyad (İsgəndərov),**
**yazıçı-jurnalist, tədqiqatçı.**

Topluda müəllifin azyaşlılar üçün müxtəlif illərdə qələmə aldığı hərflərdən, rəqəmlərdən, uşaqlardan, ilin fəsillərindən və aylardan bəhs edən şeirləri toplanmışdır.

Kitabdakı şeirlər 2019-cu ildə orta məktəb və liseylərin hazırlıq qrupları üçün nəzərdə tutulmuş "Məktəbə hazırlaşırıq" məktəbəhazırlıq qrupları üzrə 4 hissəli dərsliyin 2 hissəli metodik vəsaitin – I – və – II – hissələrinə daxil edilmişdir.

İSBN 978-9952- 82-983-9

© Zaur USTAC, 2021.

# ÖN SÖZ ƏVƏZİ

Bu gün Azərbaycanda başqa sahələrdə: sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatda olduğu kimi, xalq maarifi sahəsində də ciddi inkişaf dövrü başlanmış, təhsilin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmişdir. Ölkənin qabaqcıl ziyalı dəstəsini təmsil edən maarifpərvər ziyalıların regionda ictimai-mədəni mühitin inkişafına, xüsusən təhsilə həmişə diqqət yetirməyə və qayğı göstərməyə sövq etmişdir.

Bu baxımdan yazıçı Zaur Ustacın "Güllünün şeirləri" adlı metodik vəsaiti maraq doğurur, elmi-nəzəri və praktik dəyərliliyi ilə diqqəti cəlb edir.

Qeyd edək ki, vəsait əsasən ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qrupları və I sinif şagirdləri üçün nəzərdə tutulmuşdur. Vəsaitdə Azərbaycan əlifbasının hər bir hərfi üçün tək-tək əyləncəli, uşaqların asan əzbərləyə biləcəyi dili asan, olduqca axıcı və yüngül hecalı şeirlər verilmişdir. Kitabda həmçinin hərflərlə yanaşı kiçik məktəb yaşlı uşaqlarda riyazi bacarıqların inkişaf etdirilməsi üçün rəqəmlər haqqında da şeirlər yazılmışdır.

Onu da vurğulamaq istəyirəm ki, vəsaitdə fənlərarası inteqrasiya da düzgün qurulmuşdur. Vəsaitdə Azərbaycan dili fənni ilə Riyaziyyat fənni arasındakı inteqrasiyanın bariz nümunəsi, hərflərlə birlikdə rəqəmlərin də verilməsidir.

Həmçinin bu vəsait dərnəklərdə və bədii qiraət dərnəklərində kiçik yaşlı uşaqlara şeir öyrədən müəllimlər üçün də əlavə bir köməkçi vəsaitdir. Ona görə ki, az yaşlı uşaqlar hərfləri yaxşı tanıya bilmir, şeirləri oxuyub əzbərləməkdə çətinlik çəkirlər. Zaur Ustacın yazdığı bu şeirlər isə o, qədər asan və yadda qalandır ki, hər hansı hərfə və rəqəmə aid olan bir şeiri uşağa yalnız bir neçə dəfə təkrar etdirməklə əzbərlətmək olar.

Xüsusi ilə qeyd etmək istəyirəm ki, kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuş bu vəsait, eyni zamanda məktəbəqədər və ümumi təhsil müəssisələrində dərs deyən müəllimlər üçün də əvəzedilməzdir. İbtidai siniflərdə və məktəbəqədər təhsil müəssisələrində dərs deyən müəllimlər şagirdlərə əlifbanın hər hansı bir hərfini və ya riyaziyyatdan rəqəmləri öyrədərkən, bu vəsaitdən həmin hərf haqqında yazılmış şeiri də uşaqlara asan əzbərlədə bilərlər.

Onu da qeyd edək ki, bu vəsait məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlarda məntiqi təfəkkürün və yaradıcılıq qabiliyyətinin formalaşmasına, həmçinin uşaqların asudə vaxtlarının səmərəli keçirmələrinə də xeyli köməklik edəcəkdir.

"Güllünün şeirləri" kitabı həm məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlar, həm də onların təhsili, təlim-tərbiyəsi ilə məşğul olanlar üçün çox qiymətli vəsaitdir, eləcə də böyük dəyərə malik mütaliə materialıdır. Xatırlatmaq yerinə düşər ki, ümummilli liderimiz Heydər

Əliyev mütaliəyə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı və vasitəsi kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin son dərəcə vacib əhəmiyyət daşıdığını önə çəkərək demişdir: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".

Ulu öndər ölkənin və xalqın gələcəyinin yeni nəsilləri necə və hansı ruhda savada yiyələndirməkdən, tərbiyə etməkdən asılılığını məxsusi vurğulayırdı: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".

Vəsait böyüməkdə olan nəsillərin layiqli vətəndaş kimi formalaşmalarına xidmət göstərən materialları özündə cəmləşdirməklə yanaşı geniş elmi-pedaqoji və didaktik imkanlara da malikdir.

Uşaqlara təlim-tərbiyə vermək və onları maarifləndirmək baxımından novator yazıçı Zaur Ustacın "Güllünün şeirləri" adlı bu metodik vəsaiti dəyərli bir mənbədir.

Onu da qeyd edək ki, vəsaitdə toplanılan şeirlər və tapmacalar müasir əhəmiyyətinə görə də qiymətlidir. Vəsait hər bir məktəbəqədər və kiçik məktəb yaşlı

uşaqların bacarıqlı, yaradıcı və savadlı şəxsiyyət kimi inkişafına və gələcəkdə vətənpərvər bir gənc kimi, formalaşmasına xidmət edəcəkdir.

Deyilənlərdən belə nəticəyə gələ bilərik ki, metodik vəsaitin nəticələri müəllimlər, tərbiyəçilər, tələbələr, şagirdlər, uşaqlar və bu problemlə maraqlanan geniş oxucular üçün faydalı olacaqdır. Bu baxımdan vəsaitin nəşr olunmasını məqsədəuyğun hesab edirəm.

**Taleh XƏLİLOV,**
P*edaqogika üzrə fəlsəfə doktoru,*
*AR Təhsil Şurasının üzvü*

# KİTAB HAQQINDA TƏDQİQATÇI SÖZÜ

**Ülviyyə HÜSEYNOVA,**
*filologiya üzrə fəlsəfə doktoru,*
*BAU və ADU-nun baş müəllimi*

Kitabda əlifbamızın hər bir hərfinə aid əyləncəli, məzəli, uşaqların asan əzbərləyə biləcəyi olduqca axıcı, yüngül hecalı şeirlər və rəqəmlər haqqında olan tapmacalar toplanmışdır. Bütün bunlardan əlavə aylar, fəsillər və başqa uşaqlar üçün vacib anlayışlar barədə şeirlər də var.

2011- ci ildən məktəbəqədər uşaq müəssisələrində tərbiyəçi-müəllimlər, ibtidai məktəblərin birinci siniflərində əlifbanı öyrədən ibtidai sinif müəllimləri tərəfindən əlavə tədris vəsaiti kimi istifadə olunan kitab 2019 cu ildən Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən məktəbəhazırlıq qrupları üçün nəzərdə tutulmuş 3 hissəli dərsliyin "Məktəbə hazırlaşırıq" adlı həmin dərsliklər üzrə 2 hissəli metodik vəsaitinin I və II hissələrinə daxil edilmişdir. Orta məktəb və liseylərin məktəbəhazırlıq qrupları ilə məşğələlər təşkil edən ibtidai sinif müəllimləri üçün əvəzsiz vəsait olmaqla hələlik təkdir və bu vəsaitin alternativ variantı yoxdur.

Onu da əlavə edim ki, bu kitab yalnız məktəbəhazırlıq qruplarında deyil, eyni zamanda əvəllki illərdə olduğu kimi yenə də məktəbəqədər uşaq müəssisələrində tərbiyəçi-müəllimlər üçün əvəzedilməz vəsait olaraq qalır.

İbtidai məktəblərin birinci siniflərində əlifbanı öyrənərkən hər yeni hərf və rəqəm keçildikcə müəllimlərin "hərfə və ya rəqəmə aid şeir əzbərləyin" – kimi tapşırıqlarını da qarşılamaq iqtidarındadır.

Vəsaitdəki hərf və rəqəmlərə aid şeir – tapmacaların düzülüşü məktəbəhazırlıq qruplarında və orta məktəb-liseylərin birinci siniflərində hərf və rəqəmlərin proqramla keçilmə ardıcıllığına uyğun gəlir.

*Bu kitabdan (vəsaitdən) istifadə etməyin müəllimlərə, valideynlərə və şagirdlərə nə kimi faydası var?*

-Müəllimlər üçün əvəzedilməz vəsaitdir. Ona görə ki, onların metodiki vəsaitdə hissə-hissə və pərakəndə halda rastlaşdığı şeirlər, tapmacalar bu kitabda yığcam və ardıcıllıqla Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş proqrama uyğun şəkildə verilmişdir;

-Valideyinlər hal-hazırkı vaxtda olduqca münasib qiymətə yalnız bir kitab almaqla məktəbə hazırlaşan balacanın və ya artıq birinci sinifdə oxuyan birinci sinif şagirdinin hərf və rəqəmlərə aid şeir, tapmaca tələbatını ödəmiş olur;

-Şübhəsiz ki, müəllimin və valideynin səyləri nəticəsində bu vəsaitdən öyrəndikləri şeir və tapmacaların köməyi ilə həm şeir əzbərləmə, söyləmə, həm də məntiqi təfəkkürünü, sadə hesablama bacarıqlarını inkişaf etdirmək mənasında uşaqlar daha çox qazanmış olurlar. Uşaqların hərtərəfli inkişaf etdirilməsi, gələcək üçün kamil

şəxsiyyətlər yetişdirilməsi, insan kapitalına sərmayə qoyuluşu və başqa bu kimi ümdə məsələlər isə hal-hazırda dövlət başçısı cənab İlham Əliyevin şəxsi nəzarətində olan, eyni zamanda uşaqların hamisi Birinci vitse-pezident Mehriban xanım Əliyevanın xüsusi qayğısı ilə əhatələnmiş prioritet məsələlərdən biridir.

Bütün bu yuxarıda sadaladıqlarımızdan belə nəticəyə gəlirik ki, bu vəsait hal-hazırda məktəbəhazırlıq qrupları ilə məşğələlər təşkil edən ibtidai sinif müəllimlərinin stolüstü kitabı olmaqla bərabər, gələcəkdə məktəbə gedəcək balaca uşaqları olan hər bir ailə üçün də vacib kitabdır.

## Əbülfət MƏDƏTOĞLU – şair baba - “GÜLÜNÜN ŞEİRLƏRİ” haqqında

*Yaxın günlərin söhbətidir, imzasını tanıdığım, yazılarını mətbuatda, o cümlədən "Ədalət” qəzetində oxuduğum Zaur Ustacın kitablarını həmkarım şair Qələndər Xaçınçaylı mənə verib tanış olmağımı istədi. Onsuz da az qala hər gün yeni kitab almağa, yeni imzayla tanış olmağa adət etdiyimdən kitabları heç bir təəccübsüz və tərəddüdsüz qəbul etdim. Özünəməxsus adam olan Qələndər Xaçınçaylı sözarası onu da vurğuladı ki, Zaur yerlimizdi və onun da qohumudu.*

Təbii ki, mən yerliliyə də, qohumluğa da laqeyd deyiləm. Amma dəyərli sözün dəyərini də bilməyi, onu oxucu olaraq qiymətləndirməyi də az-çox bacarıram. Ona görə də, şair Qələndər Xaçınçaylının təqdimatı mənə kitab barəsində bilgi verməkdən daha çox müəllifi tanıtmaq təsiri bağışladı. Və mən də elə onun yanında sallofan kisədə olan kitabları çıxardım və düzdüm yazı masamın üstünə.

Kitablar müxtəlif mövzuları əhatə edir. Onlardan biri Milli Qəhrəman Mübariz İbrahimov haqqında povestdi, digəri məşhur Şamaxılı rəssam barəsində poemadı, üçüncüsü isə "Gülünün şeirləri”di. Nədənsə "Gülünün şeirləri” daha çox məni özünə çəkdi. Ola bilsin ki, bu öncə kitabın sadə tərtibatının yatardığı ovqat idi və

yaxud da kitabın balacalara- uşaqlara ünvanlanmasının təsiri burda güclü rol oynadı. Çünki mən bu ildən ibtidai sinfin hazırlıq mərhələsini başlayan nəvəm Nigar üçün bu cür kitabları toplamaqda maraqlıyam. Və...

Zaur Ustacın "Gülünün şeirləri”kitabı müəllifin özünün də qeyd etdiyi kimi, əlavə tədris vəsaitidi. Zaur Ustac kitabın ilk səhifəsində vurğulıayır ki, "əsasən orta məktəb-liseylərin birinci sinifləri üçün sinifdən xaric oxu vəsaiti kimi nəzərdə tutulduğundan şeir və tapmacaların düzülüşü hərf və rəqəmlərin proqramla keçirilmə ardıcıllığına uyğun gəlir”.

Bəli, həqiqətən də kitabın məsləhətçiləri Bakı şəhərindəki məktəblərin tanınmış orta ibtidai sinif müəllimləri olduğundan mən şeirləri və tapmacaları oxuyanda onların azyaşlılar üçün maraq doğuracağına şübhə etmədim.

Məsələn, "A” ilə bağlı Zaur Ustac yazır:

A ilə Ana deyə  
Aləmə səs salırıq.  
Azərbaycan sözünə  
A ilə başlayırıq.  
Ata, ana tək sözlər  
A-nın nəfis ilməsi  
A-dan Z-yə hərflər  
Allahın bir töhfəsi.

Bu şeirdə A hərfi ilə səslənən fikirlər, edilən təqdimatlar uşaq üçün də anlaşılandı, həm də maraqlıdı. Məsələn, G hərfi ilə bağlı:

Hər Günəşin doğması
Yeni günü başlayır.
Günəş qürub edəndə
Demək, gün başa çatır.

Günəş özü möcüzə
Sirr dolu varlığıyla
"Bir gün" isə mesajdır
Dünyaya, insanlığa.

Mən bu kitabdakı bütün hərflərlə bağlı şair, yəni Zaur Ustac fikirlərini geniş şərh etmirəm. Çünki onun şərhi hər bir oxucunun öz üzərinə düşür. Daha doğrusu, onları necə qəbul edəcəyindən asılıdır. Elə bu kitaba görə müəllifi təbrik etməklə ona və oxuculara uğurlar diləyirəm. Düşünürəm ki, kitab azyaşlıları sevindirəcək.

*“Ədalət” qəzeti,*
*29.08.2019, 140 (5604), s.6.*

# ZAUR USTAC – QƏLƏMDAR OLMAQ MİSSİYASI

*(Tənqidçinin xəfif eksklüziv münasibəti...)*

Tanıdığım istedadlı gənclər sırasında olduqca işgüzar, zəhmətkeş, obyektiv, prinsipial, hər cür manipuliyasiyadan uzaq, sözə-qələmə bağlılıq, həssaslıq, sözü-qələmi müqəddəs hesab edən və bu müqəddəsliyi hər məqamda qorumağa çalışan, içində klassik, modern maarifçilik ruhu daşıyan, bir sözlə, qələmdar olmaq missiyasını Heraklsayağı çiyinlərinə götürən, yaradıcılığın Sizif cəfasına qatlaşan gənclərdən biri də Zaur Ustacdır. Olduqca səmimi, təvazökar qələmdardır və bu yeni sözü, yeni anlayışı da ədəbiyyat cameəsinə gətirən odur.

Zaur Ustacın müasir ədəbiyyatımızda vicdanlı, tərəfsiz, liberal - azad, sərbəst ədəbi davranışı təqdirəlayiqdir və deyərdim ki, yenidir, müasir ədəbi gəncliyə örnəkdir. Zaur Ustac radikalizmdən uzaq, sözün səmimiyyətinə sığınan qələmdardır. Zaur Ustac gənc olmasına baxmayaraq (hər halda məndən çox gəncdir), o, özündə elə bir yaradıcılıq gücü tapıb və ədəbi sifera yaratmağa müvəffəq olub ki, artıq onun özgür ədəbi nüfuzu, özgür yaradıcı çəkisi haqqında çəkinmədən danışmaq olar. Mənim qənaətim belədir və bu qənaəti ictimailəşdirməmək günah olardı. İstedadı və istedadlı ədəbi gücü məqamında görmək və qiymələndirmək, fikrimcə, mühüm əhəmiyyət kəsb

edir. Bizim ədəbi tənqid üçün belə yanaşma prioritet olmalıdır.

Zaur Ustac maraqlı həyat yolu keçib, hərbçidir, istefada olan zabitdir. Onda hərbçi peşəsindən ədəbi yaradıcılığına sızan bir yaradıcılıq intizamı, ədəbiyyata yansıyan hərbçi "geosiyasi marağı" olduğunu sezirəm. Yaxşı bildiyini müdafiə etmək, onu ədəbi fikrə gətirmək, yeni nəsilə, gəncliyə əlahiddə vətənpərvərlik ruhu aşılamaq və bu işi maarifçilik səviyyəsinə yüksəltmək – onun ən ümdə "geosiyasi marağı" budur və bu da yenidir. Və bu, Zaur Ustacda istək, arzu deyil, deyərdim ki, onun şəxsi xarakterinə tamamilə yad, amma yaradıcılığına xas olan ədəbi ambisiyadır, ədəbi-bədii fəaliyyətinin nüvəsini təşkil edən amildir, ona məxsus ədəbi statusdur. Elə buna görə də onun yaradıcılığı çoxsahəli, çoxyönlü, çoxsəsli, polofondur...

Zaur Ustacın ədəbi fəaliyyəti çağdaşlıqla bərabər, ən çox gələcəyə, perspektivə yönəlikdir. Onun yaradıcılığı, həm də yaxşı olacaq dərəcədə sosialyönümlüdür. Zaurun fəaliyyəti səmərəli fəaliyyətdir, praktik iş görür, həyatın olaylarından çıxış edərək özünün yazılarında olaya çevrilir, olay içində olay yaradır. Yaddaşı çağdaşlığa daşıyır. Bir az obrazlı desək, qədimliyə bürünmüş yenilikdir, istər ədəbi mövzüda, istərə də ədəbi janrda... Onun yaradıcılığı impultiv deyildir, ardıcıllıq, mütəmadilik, məqsədyönlülük, prinsipiallıq üslubunu, yazı-mövzu yönümünü-yöndəmini şərtləndirən amillərdəndir. Ona görə də, Zaur Ustacın

yaradıcılığı bezdirici deyil, maraq doğurur, fəaliyyətə sövq edir, ədəbi zərurət olur...

Zaur Ustacın ədəbi fəaliyyətinin bir yönü də onun mövzu seçimidir. O, əksərən baxımsız qalmış, gözdən-könüldən iraq salınmış, unudulmuş yox, unutdurulan mövzulara da ürəklə, cəsarətlə göz yetirir, necə deyərlər, kölgədə saxlanılan həqiqətləri gün işığına çıxarır, yaddaşları diriləndən kitaba çevirir. Bu da onun vətənsevərliyini fərqləndirən cəhətlərdəndir. Çünki o, sosial-ictimai maraqla mənəvi marağın kəsişmə bucağını müəyyən etməyi bacarır. O, ədəbi ştamplardan uzaqdır. Tarixi-mənəvi müstəvimizdə gəzişmələr edir. Maraqlı, aktual bədii konsepsiyalar, orijinal ədəbi konfiqurasiyalar axtarışındadır. Total azərbaycançılıq tərəfdarıdır. Bütün bunları, - hələ bizim sosial durumumuzu əyən bazar iqtisadiyyatının ərkəsöyün diqtəsi dövründə etməyin çətinliyini demirəm, - əzabını, məşəqqətini göz önünə gətirin... Amma şükürlər ki, onda qara duyğular yoxdur, dan şəfəqinin duruluğu, lacivərdliyi var. Bir də ki, onun yazılarında hər şeyi öz adı ilə çağırmaq istəyi üstündür və bu, ədəbi yaradıcılıq üçün vacib şərtlərdəndir. Yazıçı məşşatə olmamalıdır.

Zaur Ustacın qələmi kənarda yox, özəkdə, nüvədə gəzişmələr edir. O, həmişə çalışır ki, standart və ehkamlar yaradıcılığına yansımasın. Diqqətimi çəkən müsbət bir cəhət də odur ki, Zaur Ustac azərbaycançılıqla türkçülüyün sinergizmindən çıxış edir, yəni söhbət sosial-fəlsəfi məna-

da özünütəşkildən gedir. Burada eyniyyət yox, biri-digərinin qüvvətləndiricisi olmaq şərtdir. Yəni, türkçülük və azərbaycançılıq biri-digərinin tərkibidir, amma biri o biri deyil, hər ikisi müstəqildir. Bunların dərkində paralellik və ya qəti oxşarlıq axtarmaq sosiallaşmada ziyanlıdır, bu metodda qeyri-xəttilik üstündür (Lütfi Zadə metodu). Zaur Ustac ədəbi-metodoloji cəhətdən sinergetik yanaşma paradiqmanın metodoloji plüralizminə daha çox meyillidir. Əlbəttə, bu, onda hələ rüşeym halındadır, amma inanırıq ki, təməldə olan dinamikadadır, inkişafdadır. Belə ki, ədəbi yaradıcılıq mexanizmlərin ardıcıl fəaliyyətini nəzərdə tutan bu metod, insan varlığının hərtərəfli inkişafı, şəxsiyyətin özünüifadə və özünütəsdiq imkanları və bütövlükdə yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması üçün ən əlverişli şərait yaradır. Zaur Ustacda türkçülüyü və azərbaycançılığı təkcə qanla, soyla bağlamır, həm də şüurla bağlayır. Bu, əslində, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə və Əhməd bəy Ağaoğlunun konsepsiyasıdır. Biz qanla, soyla türkük, amma şüurla, düşüncəcə, təfəkkürcə Azərbaycanlıyıq! Bu, populizm deyil, həqiqətdir!

Zaur Ustacın qələm yoldaşları yazılarında orijinallığı qeyri-ənənəvi yollarda axtarırlar, amma onun məni qane edən cəhətlərindən biri də ənənvi yolda qeyri-adiliyi tapmaq və müxtəlif ədəbi ölçülərdə (deyək ki, janrlarda) şərh etmək bacarığıdır. Xalq həyatının müxtəlif məqamlarında, ən ağır anlarında, millətin şərəf və ləyaqəti naminə

ayağa qalxmış, onun oğulları vətən yolunda qorxmadan dirigözlü ölümə gedən, “şər yuvalarına”, az qala əliyalın hücum çəkən oğulları – kişiləri, ərənləri, igidləri barəsində (məsələn, mərdliyin, igidliyin, qəhrəmanlığın oriyentir ulduzu olan Mübariz İbrahimov haqqında) bədii-publisist yazıları da belə xoş məramın nəticəsində ortaya gəlir, “yazıya pozu yoxdur” yaddaşına çevrilir, yaddaş kitabı olur: “Oriyentir ulduzu” (povest), “Gülünün şeirləri”, “Otuz ildir əldə qələm”, “Əliş və Anna” (poema), “Sevin ki, seviləsiz”, “Qəlbimin açıqcası”, “Çəhrayı kitab” və s. kimi iyirmidən çox kitabı kimi... Doğrudan da bu kitabları bir yerə cəm etsək, elə adını “Qəlbin açıqcası” qoyardım, çünki bu əsərlərin, demək olar ki, hamısı Zaur Ustacın oxucuya ünvanladığı ədəbi-bədii açıqcalardır, özü də səmimiyyətlə yoğrulmuş, ürəkdən, qəlbdən süzülüb gələn gizlinlər yox, məhz açıqcalar. Bir bayatısında dediyi kim, onun “can evindən qopub düşən” namələrdir. Bundan əlavə, o, ümumtəhsil məktəbləri üçün metodik vəsaitlərin, dərsliklərin, proqramların da maarifçi müəllifidir.

Bu məqamda, onun milliliyə, vətənsevərliyə, yurda-bağlılığa söykənən bilgisi, axtarış və tapmaq şövqü məmnunluq doğurur. Bu, əslində, müasir Azərbaycan zehniyyətinin bənzərsiz xüsusiyyətindən irəli gəlir – unutqanlıq sindiromundan qurtuluş yolunu tapmaq və bunu şahrah yola çevirmək cəhdi. Bunu mənəvi ehtiyacları ödəyən, əsrarəngiz Azərbaycan ruhunu bərpa edərək etik bir prinsipə çevirmək cəhdi kimi də qəbul etmək olar.

Əslində, indi bu prinsipi yaratmağa əşəddi ehtiyac var! Mənə elə gəlir ki, Zaur Ustac müstəqillik dövrü ədəbiyyatımızın, xüsusən, tarixi mövzularda qələmə alınan nəsr nümunələrinin yaratdığı ovqatdan güc alır, “Əliş və Anna” poemasında olduğu kimi, özünün istehlak enerjisinə çevirir, bu günün praqmatizmindən çıxış edir, yuxarıda qeyd etdiyim kimi, qədimliyə bürünmüş yenilik yaradır.

Gerçəyi dərk etməyin üsulu təkcə ağılla deyil, gərək ürəklə – hiss və duyğuylarla da dərk edəsən. Bu cəhət, hələlik embirional səviyyədə onun bədii təfəkkürünün dominantına çevrilməyə başlayıb və inanıram ki, tam dominantlıq alınacaq. Zaur Ustacın bir xoş prinsipi də var, ətrafına, mühitinə əlindən gələn yaxşılığı et! Bu deviz onundur: ”Yaxşılıq əlindən gəlmir, heç olmasa pislik eləmə!” O, həyatının bu çağına qədər hər cür formatda təzahür edən, min bir cildə girən pisliyə qarşı Ustac qələmini sipər edərək Qələmdar olmağı bacarıb, qələmin yükünü, sözün müqəddəsliyini dərk etdiyindəndir ki, “Söz müqəddəsdir” şeirində yazır:

Gəldin bu aləmə, ərkanı gözlə,
Yaxşı bax ətrafa, dövranı izlə,
Ustac əmanəti, aram ol sözlə,
Qələmlə elə yaz, qoy izi düşsün.

Zaur Ustacın (Mustafayev Zaur Mustafa oğlunun) 45 yaşı var, ardıcıl olaraq Bakı Dövlət Universitetində, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq

İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində təhsil alıb. Birinci Qarabağ müharibəsinin iştirakçısı və hazırda ehtiyatda olan zabitdir. 1988-ci ildən yaradıcılığa başlayıb, 32 ildir ki, ədəbi cameənin əli qələmli nümayəndəsidir. Ləqəbi "Ustac"dır; AJB-nin üzvü, "Qızıl Qələm" mükafatı laueratı, "Yazarlar" jurnalının təsisçisi və baş redaktoru, "Ustac.az" fərdi inkişaf və yaradıcılıq mərkəzi"nin təsisçisi, naşir, müasir dövrün maarifçi-demokratıdır. İntellektualdır, kreativ təfəkkürlü, qüvvətli və sağlam məntiq sahibidir. Mən onu təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin bir inam bəsləyən, fədakar bir gənc yazıçı-publisist, şair, nasir, tərcüməçi, naşir, ən ümdəsi, ziyalı kimi görür və belə də qiymətləndirirəm... Və bir yazıçı olaraq Zaur Ustacın gələcək çəki-düzənini bu sadaladıqlarımda, konkret mövqeində, QƏLƏMDAR-LIĞINDA görürəm. Eyni zamanda, toz qonmayan Qələmdar qürurunda, təmkinində görürəm! Çünki bilirəm ki, təmkin və qürur mənəviyyatı hər zaman bütün fəsadlardan, yanlışlıqlardan qoruyar...

ALLAH QORUSUN!

**Qurban Bayramov,**
*tənqidçi-ədəbiyyatşünas, doktor-professor,*
*Azərbaycan Yazıçılar birliyinin üzvü.*

**Dərc edilib:**
*"Ədəbiyyat qəzeti",*
*17.10.2020, 46 (5274)s.29*

# ZAUR USTACIN UŞAQ DÜNYASI VƏ BU DÜNYANIN "GÜLLÜNÜN ŞEİRLƏRİ" SÖZ ÇƏLƏNGİ

**Elmi rəhbər: Ramazan Qafarlı,**
**filologiya üzrə elmlər doktoru,**
**professor**

**Zaur Ustaj'ın çocuk dünyası**
**ve bu dünyanın kelime çelengi**
**"Güllü'nün şiirleri"**

**ÖZET:** Oluşum tarihine dikkat edersek, çocuk edebiyatımızda her dönemin özgün örneklerinin "altın fon" kadar korunduğu açıktır.

Gelecek neslimizin egitimi ve oluşumunda Abbas Sahhat, Abdulla Shaig, Mirza Alakbar Sabir, Suleyman Sani Akhundov, Mohammad Taghi Sidgi, Rashid bey Efendiyev, Samad Vurgun, Resul Rza, Mirvarid Dilbazi, Zeynal Khalil, Hikmet Ziya, Mikayil Rzaguluzade, İlyas Tapdig, Mikayıl Alibeyli, Rafig Yusifoğlu, Zahid Halil, Gasham İsabeyli gibi edebi mücahitlerin paha biçilmez hizmetleri vardı. XX yüzyılın 50`li yılların ikinci yarısından itibaren belirtilen dönemler içinde sonraki dönem özel bir öneme sahiptir. Geçmiş dönemlere kıyasla bu dönemin edebiyatı (çocuk edebiyatı dahil) tarih

sahnesinde sosyo-politik bilinçte ilerici eğilimler kalite degişim ile unutulmaz oldu. Korney Chukovsky, Samuel Marshak, Arkady Gaidar ve Sergei Mikhalkov gibi mücahidler sayesinde edebiyat yeni bir aşamaya girdi ve sovyet ideolojisinden çok uzak yaratıcı kalıplar şekillenmeye başladı. Azerbaycan edebiyatı bu “savaştan” uzak duramadı. Kelimeye yeni bir bakış açısı göstererek, önceki zamanlara göre farklılıklarıyla dikkat çekiyor "Altmışlar" ve "yetmişler", bu zaman süzgecinden ayrılanlardır.

Şimdi Azerbaycan çocuk edebiyatı yeni gereksinimlerle dolu XXI.Yüzyıl sahnesini yaşıyor. Degişen dünyamız, çocuğun toplumdaki yenilikleri kavramasına yardımcı olacak örknekler oluşturmayı kaçınılmaz bir görev haline getirmiş, zamanın gerçekleri, çocuk edebiyatı da dahil olmak üzere bir bütün olarak edebiyatı sürekli güncelleyen ve zenginleştiren yeni bir edebiyat türü yaratmayı zorunlu kılmıştır. Edebiyat eleştirmeni Zahid Khalil'in "Çocuk edebiyatının temel görevleri" başlıklı makalesinde belirttiği gibi, bu önemli görevlerin çözümü, yirminci yüzyılın 90'lı yıllarından sonra edebiyatla uğraşan kuşağa düştü.

Bu tür kalemlerin sahiplerinden biri, "60'lar" ve "70'ler" in yenilikçi yolunu başarıyla sürdüren, ancak ne yazık ki çocuk edebiyatı camiasına sadece bir kitapla ("Güllü Şiirleri") giren 26 kitabın yazarı Zaur Ustac'dır.

Makale, Z.Ustac'ın "60'lar" ve "70'ler" kuşağını sürdürmesinin özelliklerini tartışıyor.

**ANAHTAR KELİMELER:** Azerbaycan çocuk edebiyatı; “Altmışlar”, “yetmişler” kursağı; edebi mücahitler; zamanın gerçekleri; “Güllünün şiirleri” kitapı.

Təşəkkül tarixinə diqqət yetirsək, uşaq ədəbiyyatımızda hər dövrün özünəməxsus nümunələrinin “qızıl fond” cövhəri qədərində qorunduğu aşkardır.

Gələcəyimiz olan nəslin təlim-tərbiyəsində və formalaşmasında Abbas Səhhət, Abdulla Şaiq, Mirzə Ələkbər Sabir, Süleyman Sani Axundov, Məhəmməd Tağı Sidqi, Rəşid bəy Əfəndiyev, Səməd Vurğun, Rəsul Rza, Mirvarid Dilbazi, Zeynal Xəlil, Hikmət Ziya, Mikayıl Rzaquluzadə, İlyas Tapdıq, Xanımana Əlibəyli, Məstan Günər, Rafiq Yusifoğlu, Zahid Xəlil, Qəşəm İsabəyli kimi ədəbiyyat mücahidlərinin əvəzsiz xidmətləri olmuşdur. Qeyd edilən zamanlar çərçivəsində XX əsrin 50-ci illərinin II yarısından sonrakı dövr xüsusi önəm daşıyır. Əvvəlki zamanlarla müqayisədə bu dövr ədəbiyyatı (*uşaq ədəbiyyatı da həmçinin*) tarix səhnəsində ictimai-siyasi şüurda mütərəqqi meyllərin keyfiyyət dəyişikliyi ilə yaddaqalan olmuşdur. Korney Çukovski, Samuil Marşak, Arkadi Qaydar, Serqey Mixalkov kimi mücahidlərin sayəsində ədəbiyyat yeni mərhələyə qədəm qoymuş, sovet məfkurəsindən uzaq yaradıcılıq nümunələri formalaşmağa başlamışdı. Azərbaycan ədəbiyyatı da bu “savaşdan” qıraq qala bilməzdi. Əvvəlki zamanlarla müqayisədə fərqliliyi

ilə diqqət çəkən, sözə yeni baxış sərgiləyən "altımışıncılar", "yetmişincilər" nəsli zamanın məhz bu süzgəcindən ayrılıb seçilənlərdir.

İndi Azərbaycan uşaq ədəbiyyatı da özünün yeni tələblərlə dolu XXI əsr mərhələsini yaşayır. Dəyişən dünyamız cəmiyyəti əhatəsində sıxan yenilikləri uşağın qavramasına, dərk etməsinə kömək edən nümunələr yaradılmasını qaçılmaz vəzifə olaraq qarşıya qoymuş, zamanın reallıqları yeni tipli ədəbiyyat yaradılmasını, bütövlükdə ədəbiyyatın, o cümlədən uşaq ədəbiyyatının da daim yenilənməsi və zənginləşdirilməsi tələbini qaçılmaz etmişdir. Bu həllivacib vəzifələrin həlli isə, ədəbiyyatşünas-şair Zahid Xəlilin "Uşaq ədəbiyyatının başlıca vəzifələri" məqaləsində xüsusi vurğuladığı kimi, XX əsrin 90-cı illərindən sonra ədəbiyyatda mövqe sərgiləyən nəslin öhdəsinə düşmüşdür.

Belə qələm sahiblərindən biri "60-cılar" və "70-cilər" nəslinin yenilikçilik yolunu müvəffəqiyyətlə davam etdirən 26 kitab müəllifi, ancaq, təəssüf ki, uşaq ədəbiyyatı cameəsinə yalnız bir kitabı ilə (*"Güllünün şeirləri"*) daxil olan Zaur Ustacdır.

Məqalədə Z.Ustacın "60-cılar" və "70-cilər" nəslinin yolunu hansı özünəməxsusluqları ilə davam etdirdiyindən bəhs olunur.

***

O qələm sahibi xoşbəxtdir ki, onun ədəbiyyata gətirdikləri qeyri qələm sahibləri tərəfindən də qəbul

oluna, yaşadıla. Necə ki biz Z.Xəlil yaradıcılığında xalq ədəbiyyatı ruhunu, folklorun ılıq nəfəsini, Abdulla Şaiq üslubunu aşkar görürük,uşaq ədəbiyyatına eynilə Z.Xəlil tərzində yanaşma Zaur Ustacın da yaradıcılığında (uşaq şeirlərində) müşahidə edilir.
Hansı tərzdə?
Təqdim olunan məqalədə bu məqamlar zaman-zaman mühakimənizdə.

***

**Əvvəlcə uşaq ədəbiyyatı nümunəsi**
**və bu müstəvidə Z.Ustacın mövqeyi haqqında**

Uşaq əsəri, yoxsa uşaqlar üçün yazılan əsər?

Bu mövzu illərlə qələm sahibləri, o cümlədən ədəbiyyatşünaslar və tənqidçilər tərəfindən birmənalı qarşılanmamışdır.

Ədəbiyyatşünas Zahid Xəlil, Füzuli Əsgərli və Bilal Həsənli bu qənaətdədirlər ki, "uşaq ədəbiyyatı" dedikdə 3-17,18 yaşadək oxucular üçün yazılan ədəbiyyat nəzərdə tutulur. Həm də yazıçı hansı yaş mərhələsi üçün yazdığını, deyək ki, məktəbəqədər yaşda uşaqlar üçün (*3-6 yaş*); kiçik məktəb yaşı dövrü (*6-10 yaş*); yeniyetməlik dövrü (*10-14 yaş*); yoxsa ilkin gənclik yaş həddi üçünmü (*14-17 yaş*) yazdığını irəlicədən nəzərə almalıdır [3. s.13; 2. s.3]. "Balaca oxucu çox tələbkardır, onun zəif əsərə maraq göstərməsi mümkün deyildir. Uşaq əsəri yaratmaq üşün sənətkarda istedad, əməksevərliklə yanaşı dünyaya uşaq gözləri ilə baxmaq, uşaq dünyasının incəliklərindən baş

çıxarmaq bacarığı lazımdır. Yüksək sənət nümunəsi olan, uşaqların bəyəndiyi əsəri yazmaq üçün sənətkarda bədii sözdən istifadə məharəti ilə yanaşı, uşaq qəlbinin, hiss və duyğularının təbiiliyi, sadəliyi, təvazöğkarlığı, saflığı olmalıdır" [2. s.7].

Z.Ustaca görə, o əsər hamı tərəfindən qəbul edilir ki, hər kəs oxuduğu "hər kəlmədə öz hiss və duyğularını görə bilir. Bir bənd şeiri min əhvallı oxucu oxuyur, hamısı da düşünür ki, məhz bu sözlər onun üçün deyilib. Söz sənətində ustalıq, ədəbiyyatda təqdimetmə bacarığı – obrazlılıq – məhz budur,  obrazli desək, obrazin özüdür ..." [8. s.123."Obrazın özü" məqaləsi].

"Uşaq yazıçısı necə və kimlər ola bilər?" sualını V.Q.Belinski belə cavablandırıb: "Uşaq yazıçısının yaranması üçün olduqca çox şərtıər vardır: nəcib, sevən, diqqətli, sakit, körpəcə sadədil bir qəlb, yüksək məlumatlı bir idrak, predmetlərə aydın bir baxış, yalnız canlı bir təsəvvür deyil, həm də şairanə bir xəyal, hər şeyi canlı, zəngin surətlər halında təsəvvür etməyə qabil bir xəyal lazımdır" [1. s.12].

Tədqiqatçı Hədiyyə Şəfaqət haqlı olaraq yazır ki, "... biz uşağı nə vaxt görə biliriksə, uşaq ədəbiyyatı o zaman yaranır. Uşağı görmək üçün gərək uşağın özü ola. Yəni əyani material" [5.].

Fikrimizcə, mülahizənin daha dəqiq ifadə tərzi də mümkündür. Biz də bu mülahizəni təqdirəlayiq hesab edirik ki, hansı qələm nümunəsinin içində uşaq dünyası

görünürsə, həmin əsəri uşaq ədəbiyyatı nümunəsi qəbul etmək olar.

Təbii ki, qələm sahibi ədəbi qəhrəmanını necə görürsə, hansı tərzdə qəbul edirsə, düşüncələrini o yöndə də qələmə alır.

Hədiyyə Şəfaqət "Problem" rubrikalı məqaləsində uşaq ədəbiyyatının qəhrəmanları haqqında mülahizələrinin ardını belə ifadə edir: "uşaq çaşmalıdır, ayağı işləməlidir, "2" almalıdır, yeməyini dağıtmalıdır, süd içəndə ağzının böyür-başı bulanmalıdır. Uşaqdır axı" ... "Beləcə uşaq ədəbiyyatı yarada bilərik" [5.].

Biz XXI əsrin uşağına bunlarımı təlqin etməliyik? Pinti, XIX, yaxud XX əsrin birinci yarısında qalmış uşaq obrazınımı? Azyaşlıya bu təbiətli ədəbi qəhrəmanı təqdim etməklə onu bu simadamı görmək istəyirik?

Bəs azyaşlının özü necə? Bununla barışacaqmı?

Belə olan halda gəlin görək bu günün uşağı kimdir?

Mən XX əsrin II yarısında dünyaya gəlmiş nəslin nümayəndəsiyəm, bu yaşımda da mənə qaranlıq hər hansı işə əlimi bulaşdırmıram. Oğlum XX əsrin 80-ci illərinin əvvəlində dünyaya gəlib. Bir əlinin barmağının gücü çatmadığından iki əlinin barmaqlarını cütləşdirib televizorun pultunun düyməsini basıb uşaq filmlərinə baxırdı. Onun oğlu XXI əsrin əvvəllərində doğulub. Hələ əməlli danışmağı, qaydasınca yeriməyi bacarmadığı vaxtlardı, diski götürüb mənə uzadırdı ki, "baba, qoy". Deyirdim ki, "mən bacarmıram, ata gəlib diski qoyar, sən

də baxarsan”. Sizcə mənə cavabı nə olsa yaxşıdır? “Məni qucağına götür, boyum çatsın, özüm qoyum”.

Mülahizəmi süd qardaşım Ariflə bölüşəndə gülümsədi: sən XX əsrn 20-ci illərində dünyaya gəlmiş kişinin, Böyük Vətən müharibəsinin ağrı-acılarını, sarsıntılarını görmüş təfəkkür sahibinin oğlusan, oğlun XX əsrin 80-ci illərinin əvvəlində dünyaya gəlmiş nəslin övladıdır, nəvən isə oğlunun oğludur, XXI əsrin əvvəllərində dünyaya gəlmiş nəslin nümayəndəsi.

Təxminən 80 illik zaman hüdudunda doğulan üç nəslin nümayədəsinin təfəkkür tərzinə, hansı inkişaf yolu keçdiyinə diqqət yetirdinizmi?

XXI əsrin nümayəndəsi budur: qamışdan, qarğıdan “at” düzəldib çapan yox, səhərdən axşama qədər planşetlə, mobil telefonla, kompüterlə əlləşən!

Deməli, bu günün uşaq ədəbiyyatı da kimlər üçün yazıldığı ilə hesablaşmalıdır. Yazıçı “süd içəndə ağzının böyür-başını bulaşdıran” uşaq üçün yox, planşetlə oyuncaq kimi davranan uşaq üçün yazdığını ruhən qəbul etməlidir.

Əlbəttə, bunu da təbii qəbul etməliyik ki, uşaq – öz uşaq ömrünü yaşamalıdır. Amma unutmamalıyıq ki, bu günün dərsdən “2” alan uşağı kimdənsə kömək uman deyil, dərslərinə özü hazırlaşıb “2”-sini “5”-lə özü əvəz etməyi bacaran uşaqdır.

Türkiyə, Rusiya, Avropa, Amerika filmlərində uşaq obrazlarını xatırlayaq: uşaq böyük bacı-qardaşı kimi

danışır, iri adam düşüncəsi ilə mühakimə yürüdür, üzləşdiyi vəziyyətdən çıxış yolunu özü arayır.

Biz "hansı qələm nümunəsinin içində uşaq dünyası görünürsə, həmin əsəri uşaq ədəbiyyatı nümunəsi olaraq qəbul etmək olar" deyəndə, bu təbiətli uşaqlar üçün yazılan əsərləri nəzərdə tuturuq. Başqa sözlə, XXI əsrin uşağı XX əsr vətəndaşının tanıyıb-bildiyi uşaq deyil, tamamilə özgə təfəkkürə malik uşaqdır.

Biz bunu qəbul etməyə, zamanın bu diktəsi ilə barışmağa məhkumuq.

Ədəbiiyyatşünas Z.Xəlil "Uşaq ədəbiyyatının başlıca vəzifələri" məqaləsində yazır: "90-cı illərin əvvəllərində (*XX əsrin 90-cı illəri nəzərdə tutulur* – **A.İ.)** uşaq ədəbiyyatı bütövlükdə yaşlı sənətkarların ümidinə qaldı. Sonralar yavaş-yavaş yeni qüvvələr yarandı" [4. s.10].

Z.Xəlilin ünvan göstərmədən ümumi qeyd etdiyi qələm sahiblərindən biri də, mənim qənaətimə görə, imzası 1988-ci ildən mətbuatda özünə pərəstişkarlar qazanan Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı, 2019-cu ildən Prezident təqaüdçüsü, "Yazarlar" jurnalının təsisçisi və baş redaktoru Zaur Ustacdır. Bu çağacan 26 kitabı nəşr edilib. Onlardan yalnız biri uşaq kitabıdır: "Güllünün şeirləri". Və "Güllünün şeirləri" "uşaq ədəbiyyatı" istilahının tələblərinə cavab verdiyindən oxucu mühakiməsinə çıxarırıq.

İlk dəfə sosial şəbəkədə rəqəmlərdən bəhs edən şeirləri ilə rastlaşdım. Bu şeirlər “Güllünün şeirləri” kitabından imiş. Və həmin əsərlər, içində uşaq dünyası görünən ədəbiyyat nümunəsi olduğundan diqqətimi cəlb etdi.

İlk görüşümüzdə işlətdiyi cümlə əsərləri ilə ünsiyyət bağlamağım üçün bir növ “açar” oldu: “Vur-tut bir uşaq kitabım var: “Güllünün şeirləri”. O şeirlərin ilk nümunələrini 2004-cü il dekabrın 12-də dünyaya gələn qızım Gülüzə 6-7 yaşda olanda yazmışam. Məktəbəqədər hazırlıq qrupları üçün metodik vəsait kimi də təsdiq olunub... Bir də özüm uşaq yaşımda yazdığım bir-iki uşaq şeirim var, vəssalam. Güman ki, bir də yəqin gələcəkdə nəvəm üçün yazmış olaram”.

Z.Ustac bundan sonra həqiqətən uşaqlar üçün yazmayacaqsa, təəssüf! Niyə təəssüf? Bu sorğumuza cavab “Güllünün şeirləri” haqqında düşüncələrimiz bitən yerəcən zaman-zaman mühakimənizdə.

***

Diqqət yetirdinizmi, hər üç zaman kəsiyi uşaq yaşının içində görünür: 1. Özü uşaq yaşında olanda yazdığı şeirlər; 2. Beş-altı yaşlı qızı üçün yazdığı şeirlər; 3. Nəvəsi körpə yaşında olacağı illərdə onun üçün yazacağı şeirlər.

Beləliklə, qətiyyətli olaraq qəbul etməyimiz gərəkir ki, uşaq ədəbiyyatı - uşaqlar haqqında yazılan əsərlər deyil, içində uşaq dünyası görünən əsərlərdir.

Uşaq ədəbiyyatı – uşağı dərk etdiyimiz andan, uşaq dünyasını içimizə hopdurub onu təzədən yaşadığımız anlar qələmə alınan əsərlərdir. Körpəsinə əluifbanı necə öyrətmək, bütün elmlərin açarı olan riyazi biliklərə övladını necə isinişdirmək istəyi ataya Gülüzənin uşaq dünyasını təzədən yaşadıb. Ata altı yaşlı körpəsinin həyata baxışı ilə Azərbaycan əlifbasının söz dünyasına baş vurub, riyazi biliklərin cəngəlliklərinin hələ bəsit mərhələsində o sirli dünyaya sahib durmağın mətləblərini anlatmağa səy göstərib övladına.

"Güllünün şeirləri" bu zərurətdən yaranıb. Müəllif kitabın 2011-ci ildəki nəşrinin "Ön söz"ündə bu barədə yazıb: "Gülü xanım təzə-təzə birinci sinfə gedirdi. Mən də həmişəki kimi işdə idim. Evdən zəng gəldi, cavab verəndə Gülü mənə sevinə-sevinə dedi ki, ata, " A" hərfini keçdik, müəllim evə "A"-ya aid şeir tapşırıb, gələndə hərflərə aid şeir kitabı al gətir. Dedim ki, oldu. Məhdud vaxt içərisində ora-bura baxdım. Belə bir kitab tapa bilmədim. Çox maraqlıdır ki, bütün köşklərdə başqa dillərdə belə maraqlı, əyləncəli uşaq şeir kitabları olsa da, bizim dilimizdə yox idi" [8. s.126].

Daha sonra müəllif yazır: "…birinci, ikinci sinif şagirdlərinin böyük əksəriyyəti hərfləri ayrı-ayrılıqda tanısalar da, ilkin vaxtda hecadan sözə keçəndə böyük çətinliklə üzləşirlər. Sayı çox, sanbalı yox dərsliklər və iş dəftərləri uşaqları həddindən artıq yükləsə də bu tələbatı qarşılamır. Üstəgəl, ilk gündən başlayaraq hər gün ildırım

sürətli proqramla irəliləyən tədris yükü uşaqları sıxır, yorur. Bunun kökündə isə onun sərbəst oxuya bilməməsi dayanır. Bəlkə də ən ciddi problem tapşırıqların özlərinin deyil, şərtlərinin olduqca çətin anlaşılan və alternativdə asan bir-iki hecalı söz olsa da, çətin, üç-dörd hecalı sözlərdən ibarət olmasıdır. Aydın məsələdir ki, belə olduqda istər oxu olsun, istər hesab - uşaqların vəziyyəti çətinləşir [8. s.127].

"Güllünün şeirləri" bütün bu tələblər nəzərə alınaraq qələmə alınıb. Kitabda mövzular üzrə seçim edilməsə də, məktəbə hazırlıq yaşında olan uşağın "qolundan tuta biləcək", onlara bilgi verə biləcək şeirlər toplanıb: əlifbaya aid şeirlər, rəqəmlərə, aylara, ilin fəsillərinə, uşaqlara, təbiətə aid və vətənpərvərlik mövzusunda şeirlər. Hansı ki, valideyn himayəsi olmadan da uşağın özü bu şeirləri oxuyub dərk etmək, onlarla "dil tapmaq" imkanında ola bilir. 2016-cı ildə nəşr olunmuş kitabın titul səhifəsində oxuyuruq: "...kitab bilavasitə körpə, fidan balalara şeir öyrədənlərə kömək məqsədi ilə qələmə alınmışdır. Kitabda əlifbamızın hər bir hərfinə aid əyləncəli, məzəli, uşaqların asan əzbərləyə biləcəyi olduqca axıcı, yüngül hecalı şeirlər və 1-dən 10-dək rəqəmlərdən bəhs edən tapmacalar toplanmışdır. Kitab məktəbəqədər uşaq müəssisələrində tərbiyəçi-müəllimlər üçün əvəzedilməz vəsait olmaqla yanaşı, ibtidai məktəblərin birinci siniflərində əlifbanı öyrənərkən hər yeni hərf və rəqəm keçildikcə müəllimlərin "hərfə aid şeir əzbərləyin" tapşırığın da qarşılamaq

iqtidarındadır” [7. s.4].

**Z.Xəlil şeiriyyətinin ruhu**
**Z.Ustacın uşaq şeirlərində**

*Z.Xəlilin mükəddər uşaq poeziyası müstəvisində Z.Ustacın şeirlərini doğmalaşdıran, paralel tədqiqat müstəvisinə çıxaran hansı səbəblərdir?*

Hər haldan öncə şeirlərindəki sadəlik, təbiilik, səmimiyyət, doğmalıq!

Oxuyursan, baxırsan ki ilk baxışdan hamısı sənə tanışdır, amma bu zamanacan oxumadıqların, eşitmədiklərin, görmədiklərin təsiri bağışlayır. Hər kəlməsində sənə doğma olduğunu xatırlatmaqla hansı tərzdəsə təzə nə isə deyir, başa salır, öyrədir. O səmimiyyətlə ki, sənə “öyrədilən” bu “təzə nə isə”nin həqiqətən yeni olduğunu qəbul edirsən. Məsələn, “1” rəqəmi. Baxırsan ki, “1” rəqəmi sənə tanışdır. Amma yadında qalacaqmı ki, hansı hallarda “1” ilə qarşılaşa bilərsən? Bax, Z.Ustac məktəbə getməyə hazırlaşan uşağa bunu öyrədir. daha hər hansı bir ədəd əşyanı göstərib demir ki, “1” bu görkəmdə olur. “1”-i azyaşlının yaddaşında möhkəmlətməyin daha üstün vasitələrinə əl atır və bunun üçün toplama yox, yaddaşı daha çevik düşünməyə sövq edən “çıxma” əməlindən bəhrələnir.

Məsələn, üçdən iki çıxanda neçə qaldığının yolunu uşağa belə öyrədir:

Asan bir sual verim,
İnan, yoxdur beləsi.
Üçdən iki çıxanda
Söylə, qalır neçəsi?

Şeiri oxuyan azyaşlı da həmin sualı özünə verir: "Üçdən iki çıxanda neçə qalar?" Cavabı tapmaqda valideyn körpəsinə yardımçı ola bilər. Məsələn, hər hansı əşyadan üç ədəd stolun üzərində yerləşdirər, sonra onlardan ikisini kənarlaşdırıb övladından soruşar: " Stolun üzərində neçəsi qaldı?" Uşaq stolun üzərində bir ədəd əşya qaldığını görüb sualı cavablandırar.

Şeiri oxuyanda ilk olaraq müəllifin "güman, bir də yəqin gələcəkdə nəvəm üçün yazmış olaram" kəlmələri xatirimə gəldi. Deməli, Zaur balaca Gülüzəsini məktəbə hazırlaşdırarkən qızına nələri və necə öyrətdiklərini qələmə alıb. Ki, bu kitabı oxuyan gənc ailə başçıları, yaxud məktəbəhazırlıq qruplarında, ya da birinci siniflərdə dərs deyən müəllimlər şair atanın üzləşdiyi çətinliklərlə üzləşməsinlər, ata Zaurun Gülüzəsini məktəbə hazırlaşdırarkən bəhrələndiyi cəhdlərdən örnək olaraq istifadə etsinlər.

Bəzi müəllimlərə haqlı olaraq həmişə irad tutmuşam ki, məsələn, riyazi hesablama zamanı uşağa aparılan əməlin nəticəsini, başqa sözlə, 2+2-nin hazır cavabının 4 olduğunu demək düzgün mövqe deyil. Məktəbli

hesablamanı bu yöndə "öyrəndiyi" halda digər məqamlarda yenə kömək üçün kimə isə möhtac olacaq, ona əməliyyatın nəzəriyyəsi öyrədildikdə isə... Nəzəriyyə elmdir, qanundur – ömürlük yaddaşa yazılarsa, ömürlük əlindən tutmuş olacaq. İstəyirsən yüz yaşa, istəyirsən milyonlar üzərində hesablama apar, fərq etməz.

Adətən məktəbliyə hesablama plyusdan (üstəgəl əməlindən) istifadə etməklə öyrədilir. Hamının bildiyi və müəllimin də tədris prosesi zamanı ilk olaraq istifadə etdiyi bu variantdır. Z.Ustac isə fərqli mövqedədir. O, azyaşlıya azdan çoxa yox, çoxdan aza hesablamağı öyrətməyə səy göstərir.

Biliyə bu sayaq yiyələnmə isə insanı daha çevik düşünmək qabiliyyətinə, daha güclü məntiqi təfəkkürə sahib olmağa sövq edir.

"Təkrar biliyin anasıdır". "1" rəqəminə həsr etdiyi ikinci şeirdə də şair həmin vasitədən bəhrələnir. Şeirdə daha iki rəqəmin adı çəkilir. Bununla azyaşlı oxucunun diqqətinə çatdırılır ki, ilk "1", "2" və "3" rəqəmlərindən savayı nisbətən çətin tələffüz edilən "5" və "6" rəqəmləri də var. Və "6"-nı nə qədər azaltmaq lazımdır ki, "5" alınsın?

İndi bir az da
Çətinləşdi iş.
Neçə azalsa
"Altı",

qalar “beş”?

Cavab yenə də “1”-dir (6-5=1).

...Uşaq yaddaşı ağ kağız kimidir, ora nəyi yazdın, necə yazdın, o cür də qəbul edəcək.

Z.Ustaca görə, rəqəmləri, hərfləri, dilaçma ərəfəsinin ilk kəlmələrini məktəb yaşına çatan uşağın yaddaşına “yazmaq” üçün rahat vasitələrdən biri də şeirdir. Axı şeir dilinin içində gizli pıçıltı ilə “oxunan” nəğmə var, bu nəğmənin adamın vücudunda cövlan edən ritmi var, bu ritmi “hərəkətə gətirən” musiqi var. Musiqi ilə öyrədilən söz isə yaddaşa tez həkk olur, asanlıqla və əbədilik hopur. Z.Ustac elə buna görə körpəsinə əlifbanı və rəqəmləri öyrətmək üçün poeziyaya üz tutub.

Z.Ustaca görə, “A” hərfi ən müqəddəs hərfdir. Hər haldan öncə ona görə ki, Azərbaycan övladı üçün insanlığın zirvəsində qərar tutan “ana” və “Azərbycan” kəlmələri “a” hərfi ilə başlayır:

“A” ilə “Ana” deyə
Aləmə səs salırıq.
“Azərbaycan” sözünə
“A” ilə başlayırıq. [6. s.6].

Hələ bu azmış kimi, Z.Ustac Azərbaycan əlifbasının “A” hərfi ilə başlayıb “Z” ilə sonlandığı, həmçinin “ana”, “ata” kəlmələrində iki “a” hərfi olduğu və “a” hərflərinin

“n” və “t” hərflərini əhatəyə aldığı haqqında da azyaşlı oxucusuya informasiya ötürür:

Baxın “ana” sözünə,
Hərfləri kim sayar?
“N” ortada tək durub,
Hər tərəfdə bir “A” var.

Ata, Ana tək sözlər
A-nın nəfis ilməsi.
A-dan Z-yə hərflər
Əlifbanın töhfəsi.

“N” hərfinə aid sözdə isə tədris prosesi zamanı əlifba sırasının pozulmasının səbəblərinə aydınlıq gətirilir:

“N” iyirminci hərfdir,
Düşüb qabağa amma.
Çünki onu bilməsək
Yaza bilmərik “ana”.

“N” hərfinə aid başqa bir bəndlik şeirdə isə uşaq ona doğma olan daha üç sözlə (“ninni”, “nehrə” və “nəvə” sözləri ilə) özünün lüğət fondunu zənginləşdirmiş olur:

“N” nənəmin **ninni**si,
“N” nənəmin **nehrə**si,
“N” nənəmin şipşirin
Noğul kimi **nəvə**si.

Z.Xəlil yaradıcılığındakı sayaq Z.Ustacın da rəqəmlərə aid tapmaca xislətli şeirləri var. Məktəbəqədər yaşda olan, hələ əlifbanı bilməyən, rəqəmlər haqqında bəsit təsəvvürə malik uşaqlar üçün yazılıb.

Müqayisə üçün diqqət yetirək: Z.Xəlilin tapmaca-şeirlərində cavab ya şeirin sərlövhəsində, ya da şeirin içində axtarılır, Z.Ustacda isə sual oxucuya müəllifin özü tərəfindən ünvanlanır. Həm də olduqca asan, hələ hesablama əməlindən zərrəcə anlayışı olmayan azyaşlının sualı dərk edə biləcəyi tərzdə:

Hansı qoçaq tez deyər,
Söyləyin, ay uşaqlar?
Xor-xor yatan pişiyin,
Neçə xumar gözü var?

İt və pişik uşağın ən çox sevgi, məhəbbətlə əhatə etdiyi ev heyvanlarındandır. “Pişiyin neçə gözü ola bilər?” sualını müəllifdən qəbul edən azyaşlı öncə hər gün evdə gördüyü pişiyi göz önünə gətirir. İnsanda da, pişikdə də iki göz olduğunu yəqin edir və beləliklə, cavab tapılmış olur.

Bu sıralanma 10 rəqəminə qədər davam edir.

Diqqət yetirək:

Eşitdim, öyrənmisən
İndi daha saymağı,
Adamın bir əlində

Neçə olur barmağı?

Artıq istiqamət verilib. Uşaq bir əlindəki barmaqlarını sayır və məlum olur ki, insanın bir əlində 5 ədəd barmaq var.

Yaxud, “6“ya aid şeir-tapmaca:

Cavabını kim verər,
Belə asan sualın;
Dörd ayağı, qulağı
Neçə edər ulağın?

Şeirdə ulağın ayaqlarının sayı müəllif tərəfindən artıq qeyd olunub (4), qalır ulaqda neçə qulaq olduğunu xatırlamaq. Ulağı daha yaxından tanımaq imkanı olan kənd uşaqları ulaqda neçə qulaq olduğunu yaxşı bilir, şəhərli uşaqlar da bunu, güman, cizgi filmlərindən görməmiş olmazlar. Beləliklə, uşaq 4-ün üstünə 2 rəqəmini gəlir və cavab məlum olur: 4+2= 6.

At yanında balası,
Gəzirdi otlaqları.
İkisinin bir yerdə
Neçədir ayaqları?

“8“-ə aid bu şeir-tapmacanı cavablandırmaq o qədər də çətinlik törətmir. Çünki 4-ə aid şeirdə dəvənin ayağının dörd olduğunu yəqin etmişdik. At da eynilə dəvəyə bənzər

bədən quruluşunda olduğundan, uşaq atın da ayağının dörd olduğunu təxmin edir. Elə isə atın ayaqlarının sayı ilə balasının ayaqlarının sayı birlikdə nə qədər edər? 4+4=8.

Bir cəhətə də diqqət yetirməyi unatmayaq. Z.Xəlilin yaradıcılığında uşaq poeziyasının tələbini ödəyən bütün şeir nümunələri ilə qarşılaşdığımız halda, Z.Ustacın şeirləri əsasən bir bənddən (dörd misradan), yaxud iki, ya üç bənddən ibarət olur. Özünün ifadə tərzi ilə desək, uşağın şeiri daha rahat və tez qavraması üçün.

Yaradıcı ömrünü bütünlüklə uşaq ədəbiyyatına həsr etmiş Z.Xəlilin də hərflər və rəqəmlər haqqında əsərləri var: "Hərflər", "İki yumurta", "Hesab", "Hesab dəftəri", "2" əhvalatı" şeirləri və "Sıfırın nağılı" mənzum nağılı. Bu şeirlərdə hərflərdən və riyazi əməliyyatlardan, onların ümumi görünüşündən, bənzər, yaxud fərqli əlamətlərindən bəhs olunur. Yazıçı uşağa sadəcə bilgi verməklə kifayətlənmir, eyni zamanda məktəblini məntiqi cəhətdən düşünməyə də sövq edir. Məqamı ikən qeyd edək ki, Z.Xəlilin bu kimi şeirləri zamanında Azərbaycan uşaq ədəbiyyatında yaranmış boşluğu dolduran azsaylı nümunələrdən olub və bu gün də əvvəlki təravətini, oxucu məhəbbətini qoruyub saxlamaqdadır.

Z.Xəlil şeirlərini əsasən XX əsrin 70-ci illərində qələmə alıb, Z.Ustac isə ondan illər sonra. İlk dəfə 2011-cu ildə nəşr olunan "Gülünün şeirləri" bağça və ibtidai sinif müəllimləri üçün dərs vəsaiti qismində tövsiyə edilmiş, 2019-cu ildə Təhsil Nazirliyi tərəfindən məktəbə-

hazırlıq qrupları üçün nəzərdə tutulmuş 3 hissəli dərsliyin "Məktəbə hazırlaşırıq" adlı həmin dərsliklər üzrə 2 hissəli metodik vəsaitinin I və II hissələrinə daxil edilmişdir. 2016-ci ilə qədərki nəşrlər "Gülünün şeirləri", 2019-cu və 2020-ci illərdəki təkmilləşdirilmiş nəşrlər isə "Güllünün şeirləri" adlandırılmışdır

Pedaqogika üzrə fəlsəfə doktoru Taleh Xəlilov kitaba yazdığı "Ön söz"də müəllifi haqlı olaraq "novator şair" adlandırmış, kitaba daxil edilmiş şeirlərin "böyük dəyərə malik mütaliə materialı", "müasir əhəmiyyətinə görə qiymətli" olduğunu qeyd etmişdir. T.Xəlilova görə, "vəsaitdə fənlərarası inteqrasiya da düzgün qurulmuşdur". Məqalə müəllifi dərs vəsaitinə hərflərlə birlikdə rəqəmlərin də daxil edilməsini "Azərbaycan dili fənni ilə riyaziyyat fənni arasındakı inteqrasiyanın bariz nümunəsi" qismində dəyərləndirmişdir: "Vəsaitdə Azərbaycan əlifbasının hər bir hərfi üçün tək-tək əyləncəli, uşaqların asan əzbərləyə biləcəyi dili asan, olduqca axıcı və yüngül hecalı şeirlər verilmişdir" [6. Xəlilov Taleh. "Ön söz" məqaləsi. s.3, 4 və 5].

Tənqidçi-ədəbiyyatşünas, doktor-professor Qurban Bayramov Z.Ustac şeiriyyətinin "sirlərini" incələyib onları "ədəbi ştamplardan uzaq" adlandırıb: "Zaur Ustacın ədəbi fəaliyyəti çağdaşçılıqla bərabər ən çox gələcəyə, perspektivə yönəlikdir. Onun yaradıcılığı həm də yaxşı olacaq dərəcədə sosialyönümlüdür", - yazır, - "bezdirici deyil, maraq doğurur", "impultiv deyildir, ardıcıllıq, mütəmadi-

lik, məqsədyönlülük, prinsipiallaq üslubunu, yazı-mövzu yönümünü-yönəmini" şərtləndirir. Müəllif, yazıçının "hər şeyi öz adı ilə çağırmaq", türkçülüyü və azərbaycançılığı təkcə qanla, soyla deyil, həm də şüurla bağlamaq missiyasını, ənənəvi yolda qeyri-adiliyi tapmaq və müxtəlif ədəbi ölçülərdə (deyək ki, janrlarda)" şərh etmək bacarığını yüksək qiymətləndirir.

Z.Ustacın ümumən yaradıcılığı haqqında deyilən bu qənaətlər şairin uşaq şeirlərində də aydın müşahidə olunur. Həyatın çox gərdişlərindən bixəbər böyüyən uşaqlar sadəlövh olduqları qədər də ağıllı və düşüncəli; şıltaq və dəcəl olduqları qədər də təmkinli, qayğıkeş, bir-birini başa düşən, qəbul edəndirlər. Yayı sevirlər – heç vaxt görmədikləri yerlərə səyahət edəcəklər axı. Qışı da sevirlər - qartopu oynayacaqlarına, qardan şaxta baba, qar qız düzəldəcəklərinə, şaxtalı havada buz üzərində sürüşəcəklərinə görə. Yazin, payızın da özünəməxsus özəllikləri var onlar üçün. Birində uca Tanrının rəngkarı olduğu özəl bir dünyaya vurğun kəsilirlər, digərində Ulu Yaradanın son "şah əsəri" olan insanı yaşatması üçün yoxdan var etdiyi nemətlərin ətrini, dadını çıxarırlar özləri üçün.

Bu sevgilər içərisində onları daha çox qayğılandıran Vətənə, Ana torpağa məhəbbətdir. Yanvarın, fevralın, martın öz özəlliyi olduğu kimi, payız aylarının da özünəməxsusluqlrı uşaqlar üçün cəlbedicidir. Onlar məktəbi, kitabı daha çox sevirlər. Axı yaxşı oxumasalar həyatda mükəmməl insan ola bilməzlər. Bunun üçünsə kimə

minnətdar olmaq lazımdır? Müəllimlərinə, kitablara, hər kəsdən öncə isə ömrünü övladlarına fəda edən valideynlərinə.

Z.Ustacın uşaq şeirlərində gələcəyimiz olan balalara bunlar təlqin olunur. Və artıq qeyd etdiyimiz kimi, uşağın çox rahatlıqla dərk edəcəyi, qəbul edəcəyi anlamlı deyim tərzində.

...Q.Bayramov Z.Ustacın yaradıcılığında bir cəhətə də xüsusi önəm yetirir. Yazıçının "baxımsız qalmış, gözdən-könüldən iraq salınmış, unudulmuş yox, unutdurulan mövzulara da ürəklə, cəsarətlə göz yetirməsinə, necə deyərlər, kölgədə saxlanılan həqiqətləri gün işığına çıxarıb yaddaşları dirildən kitaba" çevirməsinə. Z.Ustacın belə yadigarlarından biri unudulmaqda olan "USTAC" istilahına təzədən həyat verməsidir. Azərbaycan kişi adlarının izahlı lüğətində "sənətkar, öz peşəsinin bilicisi" mənasını daşıyır, Z.Ustacın öz qənaətinə görə isə, "qələmdar olmaq missiyası"nı.

***

Əvvəldə Z.Xəlilin "Uşaq ədəbiyyatının başlıca vəzifələri" məqaləsinə istinad edərək XX əsrin 90-cı illərinin əvvəllərində uşaq ədəbiyyatının bütövlükdə yaşlı sənətkarların ümidinə qaldığını, sonralar yavaş-yavaş yeni qüvvələr yarandığını diqqətə çatdırmış və bu yeni qüvvələr sırasında Z.Ustacın özünəməxsus yeri olduğun qeyd etmişdik...

Z.Xəlil yaradıcılığından bəhs edəndə həmişə demişəm ki, o, xoşbəxt taleli yazıçılarımızdandır. Hər haldan öncə ona görə ki, Abdulla Şaiq yaradıcılığına, folklora, şifahi xalq ədəbiyyatına bağlılıq onu bu günkü uçalığında qərarlaşdırıb. Həmçinin bir də ona görə ki, Z.Xəlilin uğurla inkişaf etdirdiyi uşaq ədəbiyyatımız bu gün Z.Ustac kimi qələmdarların yaradıcılığında özünəməxsus yönümdə davam etdirilir.

**Ədəbiyat siyahısı:**

1. Belinski V.Q. Seçilmiş əsərləri. Bakı-1948.;
2. Həsənli Bilal Azərbaycan uşaq ədəbiyyatı. Bakı-“Müəllim” nəşriyyatı-2015, 522 səh.;
3. Xəlil Zahid, Əsgərli Füzuli. Uşaq ədəbiyyatı. Bakı-2007, 490 səh.;
4. Xəlil Zahid. Azərbaycan uşaq ədəbiyyatı. Bakı-2019, 306 səh.;
5. Şəfaqət Hədiyyə. Uşaq ədəbiyyatında obrazlar və dərsliklər. Problem. 2 iyul 2012-ci il [https://modern.az/az/news/25987;
6. Ustac Zaur. “Güllünün şeirləri”. Bakı-“Mücrü”-2020, 40 səh.;
7. Ustac Zaur. “Gülünün şeirləri”. Bakı-2016, 30 səh.;
8. Ustac Zaur. Qələmdar. Bakı-2020, 300 səh.

**Ayətxan Ziyad (İsgəndərov)**
*Azərbaycan Yazıçılar*
*və Jurnalistlər birliklərinin üzvü,*

*yazıçı-jurnalist, tədqiqatçı.*

**Dərc edilib:**

**1. İlk xəbər. 13yanvar 2021**.
https://ilkxəbər.orq/news/php?id=51175;

**2.** ***Müstəqil.Az*** **13.01.2021.**

https://www.mustaqil.az/?p=74616;

**3.** ***Kultur.Az*** **15.01.2021.**

http://kultur.az/?p=16218;

**4.*****Fedai.az  20.01.2021***

http://fedai.az/?p=27097.

# "GÜLÜZƏNİN ŞEİRLƏRİ" NECƏ OLDU Kİ YARANDI?!

**Redaktordan:**

Kitab 2011-2016-cı illərdəki nəşrlərdə "Gülünün şeirləri", 2019-2020-ci illərdəki nəşrlərdə "Güllünün şeirləri" adı ilə nəşr edilib. 2021-ci ildəki nəşrdə isə kitab "Gülüzənin şeirləri" adlanır.

Bu qaynaq hardandır?

**Açıqlama Zaur Ustacın dediklərində**:

Kitabın "Gülünün şeirləri" adlanması təsadüfi deyil. Belə ki, Gülü xanım (*qızı Gülüzə nəzərdə tutulur-**A.Z**.*) təzə-təzə birinci sinfə gedirdi. Mən də həmişəki kimi işdə idim. Evdən zəng gəldi. Cavab verəndə Gülü mənə sevinə-sevinə dedi ki, ata, "A" hərfini keçdik. Müəllim evə "A"-ya aid şeir tapşırıb, gələndə hərflərə aid şeir kitabı al gətir. Dedim ki, oldu. Məhdud vaxt içərisində ora-bura baxdım, belə bir kitab tapa bilmədim. Çox maraqlıdır ki, bütün köşklərdə başqa dillərdə maraqlı, əyləncəli uşaq şeir kitabları olsa da, bizim dilimizdə yox idi.

Bir az da internetdə axtardım, ürəyə yatan bir nəticə olmadı.

"A" ilə "ana" deyə aləmə səs salırıq" kəlməsi dilə gəldi və ardınca bütün digər şeirlər öz növbəsində sıralandı. Onu da mütləq qeyd etməliyəm ki, Gülü xanım

bu şeirlərin hər birisi üçün öz birinci sinif müəllimi Əzizə xanımdan "ƏLA"qiymətdən əlavə üstəlik "AFƏRİN" də alıb.

Kitabın adındakı dəyişiklik isə sırf texniki səbəblə bağlı olub. Belə ki, adı "GÜLÜNÜN ŞEİRLƏRİ" olsa da, həm istifadəçilər, həm də vaxtaşırı kitab haqqında mətbuatda fikir bildirən mütəxəssislər ya "Güllünün şeirləri", ya da "Gülüşün şeirləri" deyə kitabdan bəhs edir, yazılar yazırdılar. Belə olduqda, biz də, Gülü xanımın da öz razılığı ilə, kitabın adında texniki dəyişiklik edib onu hamının daha çox adlandırdığı kimi "Güllünün şeirləri" adlandırdıq.

**Redaktordan:**

Biz azırbaycanlılarda övladını əzizləyib onu istədiyi adla çağırmaq ənənə halını alıb. Gülüzə də uşaq yaşlarında onu sevib-oxşayanlar tərəfimdən "Gülü" adı ilə əzizlənib. Kitabın ilk adı bu istəyin nəticəsi olaraq "Gülünün şeirləri" adlandırılıb.

Sonradan kitabın adının dəyişdirilməsi oxucuların kitabı öz aralarında "Güllünün şeirləri" adlandırmalarının nəticəsi olaraq yaranıb.

Amma əslində artıq məlum olduğu kimi, şeirlər fakt olaraq nə Gülünün, nə də Güllünün adına yazılmayıb. Şair azyaşlı uşaqlar üçün qələmə aldığı şeirləri ailənin sevinci, sevimlisi Gülüzənin adını nəzərdə tutub qələmə alıb.

Nəhayət, 20 illik fasilədən sonra da olsa, yanlışlığı aradan qaldırmaq niyyətində olduq.

**Müəllif qeydlərinin davamı:**

Əlifbamızın bütün hərflərinə, eləcə də rəqəmlərin hamısına aid maraqlı şeir və tapmacaların yer aldığı kitab ilk dəfə 2011-ci ilin sentyabrdan Bakı şəhər Arif Hüseynzadə adına tam orta məktəb-liseyin Gülünün oxumağa başladığı müəllimə Əzizə Abdullayevanın sinfində şeir-şeir, tapmaca-tapmaca istifadə olunub və tezliklə əl yazısı, surət çıxarma vasitəsi ilə əldən-ələ, məktəbdən-məktəbə yayılıb. Vəsaitə olan ciddi təlabat və Əzizə müəllimənin istəyi nəzərə alınaraq kitab ilk dəfə 2011- ci ilin dekabırında nəşr olunub.

...Bu birinci nəşrdən sonra tələbat artıqca 2016-cı ilə qədər kitab cüzi texniki dəyişikliklərlə (bir dəfə də DVD əlavə ilə ) dəfələrlə nəşr olundu.

Kitab 2011-ci ilin sonlarından həm internet üzərindən müxtəlif portallarda, həm də ənənəvi qaydada kitab şəklində körpə olan valideynlər, uşaq bağçası tərbiyəçiləri, ibtidai sinif müəllimləri arasında ən populyar, demək olar ki, alternativsiz vəsait olaraq dövriyyədədir. Kitabın tam pulsuz internet üzərindən daim fasiləsiz və təhlükəsiz fəaliyyət göstərən portallar vasitəsi ilə əlçatan olması onun qısa bir müddətdə geniş yayılmasına səbəb olan amillərdən biri, bəlkə də ən başlıcasıdır. Kitab tam

variantda və internetdə pulsuz olmasına rəğmən ənənəvi kitab variantına da həmişə ehtiyac olub və bu gün də var. Nəhayət, 2019-cu ilin avqustunda əsər rəsmi olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hazırlanmış məktəbəhazırlıq qrupları üçün nəzərdə tutulan "Məktəbə hazırlaşırıq" adlı metodiki vəsaitə daxil edilmişdir:

**Dərc edilib**:

1.yazyarat.com 14 yanvar 2021.

https://www.yazyarat.com/yazi/guelluenuen-seirleri-nece-yarandi-zaur-ustac

2.yazarlar.az 14 fevral 2021.

https://yazarlar.az/2021/02/14/gullunun-seirl%c9%99ri-nec%c9%99-yarandi-zaur-ustac/

# ZAUR USTACIN ŞEİRLƏRİNDƏ UŞAQ OBRAZLARI

(“Sətirlərdə uşaq obrazları” bölümü
(*“Gülüzənin şeirləri” kitabından*) tədqiqat müstəvisində)

**Elmi rəhbər:**
Ramazan Qafarlı,
filologiya üzrə elmlər doktoru, professor

**GİRİŞ:** Uşaq ömrü öz dəcəlliyi, ərköyünlüyü, yaşının kiçik illərində bizi “əsəbiləşdirdiyi” məqamları ilə zaman ötdükscə şirinləşib əz əziz xatirəyə çevrilib yaddaşlara həkk olan bir dünyadır. Artıq baba, nənə olduğumuz illərdə övladımızın körpə yaşlarında “başımıza açdığı oyunlara”indiki günlərimizdə bir az bal-şəkər şirinliyi, bir az da məzə qatıb danışıb-gülür, həzz alır, xoşlanırıq.

Məsələn, qəfil yadımıza düşə bilər ki... Oğlumla dostlaşmış iki sərçə vardı, hansı ki adına “Babəkin sərçələri” deyirdik. Oğlum eyvana çıxdımı, sərçələr əvvəlcə onun çiyinlərinə qonar, sonra qollarının üstü ilə yeriyə-yeriyə gəlib ovcundakı çörək qırıntılarından birini götürüb “pırr” edib havaya qalxardılar. Bu hal Babəkin ovcundakı çörək qırıntıları qurtarana qədər davam edərdi.

Yaxşı dil açmadığı vaxtlardı. Bir də görürdün gözləri sevincdən parıldaya-parıldaya nəyi isə göstərirdi: “Bax, çənbərənin yanında çepin üstündə mətənək donub”.

Pəncərənin yanındakı çöpün üstünə kəpənək qonduğunu bizə belə başa salırdı.

Yaxud, ilk dəfə işıqforun işığının yanıb-sönməsini görəndən sonra nəinki işıqforun, evdəki lampaların da yanıb-sönməsi onun üçün "danq" kəlməsilə ifadə olunurdu. Deyək ki demək istəyirdi ki, "lampanı yandırın". Bu fikrini belə ifadə edirdi: "danq". "Lampanı söndürün" tələbi də onun üçün "danq" idi.

Olurdu ki, mənzilin girişindəki lampa unudulub söndürülməyib. Mənzilin girişində qoyulmuş şkafın sol qapısını açıb ustufca divara çırpırdı. Və qürurla bizə baxırdı: "danq". Yəni ki, gördüz, işığı söndürdüm.

O illərdən 40 ilə qədər zaman ötüb. İndi nəvələrimdə bunabənzər şirinlikləri müşahidə edəndə, 40 il əvvəl oğlumda gördüklərimiz yada düşür və bu xatiratları xatırlayıb ürək dolusu həzz alırıq.

**ARAŞDIRMA:** Z.Ustacın yeni təqdimatda və yeni tərtibatda işıq üzü görən "Gülüzənin şeirləri"ndəki "Sətirlərdə uşaq obrazları" bölümünə [4. s.83-96] daxil edilən şeirlər də beləcə real həyat hadisələrindən qələmə alınan əsərlər, bu əsərlərin qəhrəmanları isə özlüyündə müxtəlif xarakter bilməcələrilə yaddaşlara hopası təxminən bir-birinin eyni olan oxşar təbiətli azyaşlılardır. Biri sadəlövh, digəri çoxbilmiş, üçüncüsü yox yerdən dava qoparan, sonrakı nəfsinə yiyəlik etməyi bacarmayan... Fakt olanı isə budur ki, onların hər biri həyatdan bizlərə

tanışdır, adını xatırlaya bilmədiyimiz haçanca "qarşılaşdığımız" uşaqlardan biridir.

Məsələn, Etibarla Ehtiram bir-birini başa düşən, bir-birilə hesablaşan uşaqlardır. Hansı işi necə yerinə yetirmək lazımdırsa, hər ikisi eyni düşüncədə olur. Belə ki, qaranquşların hansı səbəbdən görünmədiklərindən anlaqsız olan uşaqlar havaların soyumasından, qarlı-şaxtalı günlərdə quşların ac qala, yaxud xəstələnə biləcəklərindən narahatdırlar. Odur elan yazıb divara yağışdırırlar ki, kim qaranquşların yerini bilirsə, onlara desin:

Etibarla Ehtiram
Yazdılar belə elan:
"Qaranquşlar itibdir,
Varmı xəbəri olan?"

("Etibar və Ehtiram")

Şeiri oxuyan hər hansı azyaşlı elə o andaca özünə sual edir ki, görəsən quşlar niyə qəfil yoxa çıxıblar? Təbii ki, uşaq (burada, Etibarla Ehtiram) sualı cavablandırmaq imkanında olsaydılar, qaranquşları elan vasitəsilə axtarmaq məcburiyətində qalmazdılar. Sualın cavabı müəllim, yaxud valideyn tərəfindən aydınlaşdırılır. Məlum olur ki, quşların başında heç bir qəzavü-qədər yoxdur, onlar itməyiblər, sadəcə havalar soyuduğundan uçub isti ölkələrə gediblər, qaranquşların təbiəti belədir, onlar bu xislətdədirlər.

Belə olan halda "o hansı quşdur ki, yaşadığı yeri heç

vaxt tərk etmir" sualı meydana çıxa bilir. Sualın cavablandırılması məktəbliyə əlavə bilgi vermək şansı yaradır. Azyaşlı müəlliminin, yaxud valideynin köməyilə öyrənir ki, sən demə havalar soyuyanda yaşadığı yeri tərk etməyən quş da varmış və bu quşun adı sərçədir

Müəllif Etibar və Ehtiram obrazlarını yaratmaqla eyni zamanda bəzi dəcəl uşaqlara onu da başa salmaq istəyir ki, quşları sevmək, onlara qarşı qayğıkeş olmaq lazımdır.

Balaca qəhrəmanlar öz saflıqları, səmimiyyətləri ilə bir-birlərinə bənzər olduqları kimi, fərqlilikləri də var. Məhz bu və bunabənzər xarakterə malik olmaqlarıdır əsəri oxucuya sevdirən, gündəmdə qalmasına yardımçı olan, yoruculuq, usanmaq kimi bir haldan oxucunun yaxasını qurtaran. Bu isə xüsusilə uşaq ədəbiyyatı üçün vacib şərtlərdəndir.

Məsələn,

Jalə, Damla və Şəbnəm
Yola getmirdi heç vaxt.
Bir gün Yağmur dillənib,
Hamısını qoydu mat.

("Jalə, Damla, Şəbnəm və Yağmur")

Yaxud, Zümrüdlə Zamin heç vəhclə yola getmirlər. Problem isə Zümrüdün hərisliyindədir, gözü hər gördüyündən kirə istəyir. Hər dəfə də onların mübahisəsini

n üstünə su səpmək, yoluna qoymaq Zəhranın öhdəsinə düşür:

Zanbağı görən kimi,
Zümrüd dedi Zaminə,
Paxıl deyilsən əgər,
Zanbağını ver mənə.

Zəhra qarışdı işə,
Sonra dedi, bu qədər
Tənbəl deyilsən əgər,
Zəhmət çək, özün becər!

(“Zümrüd, Zamin və Zəhra”)

Mirzə İbrahimovun “Sənət, sənətkar və zəmanə” məqaləsində yazdığı kimi. obraz real həyat hadisələrinə əsasən yaranır, “həmişə təbiətin, varlığın, canlı insanın bədii inikasıdır, onun əsas, tipik xüsusiyyətlərini saxlamaqla həm mənasını, həm də formasını doğru əks etdirir” [3. s.74]. Bu fikri bir qədər başqa tərzdə ifadə edən Xalid Əlimirzəyevə görə, “Yazıçının şəxsiyyəti, əqli mühakimələri və mənəvi dünyası onun yaratdığı obrazların, xarakterlərin ruhuna, varlığına hopur. Bu obrazlar ictimai varlığı, həyat həqiqətini əks etdirməklə bərabər, həm də sənətkarın zəkasının, dünyagörüşünün, ictimai ideal və amalının, vətəndaşlıq mövqeyinin, milli bəşəri duyğularının süzgəcindən keçərək formalaşır, onun

dühasının, bədii təxəllüyünün işığında canlanır, həyata vəsiqə alır” [1. s.17].

Bölümə uşaq obrazlarına aidliyi yetən 28 şeir daxil edilib. Ancaq bu o demək deyil ki, “Sətirlərdə uşaq obrazları”nın qəhrəmanları cəmi 28 nəfərdir, xeyr. Elə şeir var onda iki, bəzən üç obrazla qarşılaşırıq. X.Əlimirzəyevin yazdığı kimi, yazıçı şəxsiyyətinin, əqli mühakiməsinin və mənəvi dünyasının məhsulu olan bu ədəbi qəhrəmanlar arasında təbiət etibarı ilə bir-birinin oxşarı olub bir-birilə yola gedənlər də var, xaraktercə bir-birindən fərqli olanlar da. Ancaq başlıca məziyyət bundadır ki, bu “İnsan xarakterlərinə, ehtiraslarına, fikir və arzularına biz hər şeydən qabaq həyatda rast gəlirik” [3. s.76].

Məsələn, “Vahid” şeiri I Qarabağ müharibəsində şəhadət zirvəsinə ucalmış Vahid Abbasovun xatirəsinə həsr olunub. Cəmi dörd misradan ibarət şeirdə müəllif qətiyyətli, sözünün sahibi, vətənpərvər bir Azərbaycan övladının obrazını yaratmağa müvəffəq olub. Azərbaycanlı xarakterinə sahib kişi obrazı,

Vahid getdi əsgərə,
Həmişə dedi: - “Oldu!”
Postunu tərk etmədi,
Vətənçün şəhid oldu.

Əsərdə "“Vahid” adı hansı hərflə başlayır”, “V” hərfi ilə başlayan daha hansı insan adı bilirsiniz”, “Əsgər niyə həmişə “Oldu!” deyə cavab verməlidir”, “Vahid Abbasov kimdir, kimlərlə döyüşdə və hansı cəbhədə şəhid olub”,

"Şəhid olmaq nə deməkdir və kimlərə "şəhid" deyilir", "Vətən uğrunda şəhid olan hansı Milli Qəhrəmanlarımızı tanıyırsınız" sualları qoyulmaqla şagirddə düşünmək qabiliyyəti formalaşdırmaq və onun əlavə bilgi əldə etməsi üçün tələbat doğuran şərait yaradılmış olur.

Yetişməkdə olan nəsildə vətənpərvərlik duyğuları aşılayan başqa bir şeir isə "Ömər və Əsmər" adlanır. Şeirdə vətənpərlik və vətəndaşlıq duyğularının Ömərin qanında-canında olduğu diqqətə çatdırılır:

Söhbət edirdi,
Ömərlə Əsmər.
Ömər dedi ki,
Olacaq əsgər!

Yetişməkdə olan nəsildə vətənsevərlik duyğularının aşılanmasını qarşıya məqsəd qoyan müəllif yeniyetməyə aşağıdakı sualları ünvanlayıb: "Səncə əsgər olmaq nə deməkdir", "Sən böyüyəndə kim olacaqsan?"

Azyaşlıya bu kimi duyğuların ruhən hakim kəsilməsi üçün əsgərlərin orduda istifadə etdiyi və uşaqlara da oyunlardan, cizgi filimlərindən, filimlərdən tanış olan "tapança", "tank" kimi vasitələrdən bəhrələnilir.

Natiq tutdu Tofiqi,
Əlində tapançası.
Tofiq təslim olmuşdu,
Yer yox idi qaçası.

("Natiq və Tofiq")

Yaxud,

Tuncay topu tulladı,
Tutu, topu tut görək!
Top-top mənə yaraşmaz,
Mən tankçı olum gərək!

("Tuncay")

"Sətirlərdə uşaq obrazları" bölümünə daxil edilən şeirlər üç yarımsərlövhə altında qruplaşdırılıb: 1 – "Bir ad bir şeir"; 2 - "İki və daha artıq şəxs adına ünvanlanan şeirlər; 3 – "Tam və bitkin şeirlər".

"Bir ad bir şeir" yarımbaşlığı altında 16 şeir *("Tuncay", "Nağı", "Yusif", "Leyla", "Raul", "Rəna", "Malik", "Qaşay"...)*, "İki və daha artıq şəxs adına ünvanlanan şeirlər"də 9 şeir (*"Natiq və Tofiq", "Rahib və Əkbər", "Fuad və Fərid", "Jalə, Damla, Şəbnəm və Yağmur"...*), "Tam və bitkin şeirlər"də isə 3 şeir (*"Ağıllı Gülər", "Oyanın, bahar gəlib", "Balaca reklamçı"*) daxil edilmişdir.

"Bir ad bir şeir" və "İki və daha artıq şəxs adına ünvanlanan şeirlər" bölgülərinə uşaq adlarına yazılan şeirlər daxil edilib. Həmin adın daşıyıcısı olan uşağın hansı təbiətdə olması, orta təhsilini başa çatdırandan sonra həyatda kim olacağı haqda düşüncələri gündəmə gətirilir. Şeirlərin sonluğunda hərflər və adlarla əlaqəli suallar, yaxud tapşırıqlar da verilir ki, bütün bunlar azyaşlının

dünyagörüşünün genişlənməsinə, iti düşünmə qabiliyyətinin formalaşmasına xidmət edən xüsusatlardır.

"Bir ad bir şeir" yarımbaşlığı altında qruplaşdırılan şeirlər əsasən dörd misradan ibarət olub birbəndlik şeirlərdir. Məsələn, "Uğur", "Jalə", yaxud "Zahir". Adları çəkilən uşaqların hər biri özünəməxsus təbiətə malikdir. Müəllifin qarşıya qoyduğu məqsəd də elə budur: qəhrəmanının hansı isə bir cəhəti, yaxud məşğuliyyəti ilə oxucusunu tanış etmək.

Məsələn, "Uğur" mühəndis, "Jalə" jurnalist olmaq arzusundadır. Uğur bu arzusunu göylərlə bölüşür, Jalə isə babası ilə:

Uğur baxıb göylərə,
Dedi, usta olacam!
Uca bir qüllə tikib,
Ulduzlara çatacam!

"Jalə" şeirində isə oxuyuruq:

Jalə aldı jurnalı,
Baba, ver baxacağam!
Böyüyəndə istəsəm,
Jurnalist olacağam!

Zahir isə, öz kəlmələri ilə ifadə etsək, gəmiçi olmaq arzusundadır:

Zahir düzəltdi,
Balaca gəmi.
Dedi: - Bu gəmi,

Mən də gəmiçi.

Tədris prosesi zamanı məktəbliyə "Uğur böyüyəndə usta, yaxud mühəndis, Jalə jurnalist, Zahir gəmiçi olmaq arzusundadır, sən böyüyəndə kim olmaq, yaxud hansı sənətə yiyələnmək istəyirsən" suallarını ünvanlamaqla (şair Uğur, Jalə və Zahir obrazlarını şeiriyyət müstəvisinə gətirməklə) azyaşlı oxucusuna demək istəyir ki, heç də hamının ali təhsil alması vacib deyil, həyatda başqa peşələr, sənətlər də var.

Təqdim olunan şeirin mövzusuna uyğun sualların tərtib edilməsi məktəblinin dünyagörüşünün genişlənməsinə diqqət çəkən vacib cəhətlərdən biridir. Məqamı ikən xatırlamaq yerinə düşər ki, XX əsri 60-70-ci illərində ümumtəhsil məktəblərində əlavə məşğələ saatları təşkil olunardı ki, bu proqram çərçivəsində məktəblilər əlavə biliklərə yiyələnmək imkanı əldə edərdilər. "Ülkər" adlandırılan şeirdə bu anlayışı şeir mövzusu seçməklə müəllifin nəyə işarə etdiyi, Ülkər və Günəş adlarının haradan götürüldüyü, "Jalə, Damla, Şəbnəm və Yağmur" şeirində "mat qoymaq nə deməkdir" sorğusunun qoyulması, "Hümmət"dən bəhs edən şeirdə "hümmət" istilahının hansı məna daşıdığı, Azərbaycanda hansı zaman kəsiyində "Hümmət" adında təşkilat olduğu və bu təşkilatın hansı məqsədlərə xidmət göstərdiyi (və s.) şagirdin əlavə bilgi əldə etməsinə, nəticə etibarı ilə dünyagörüşünü genişləndirməyə yönəlmiş imkanlardır.

Hümmətin beş yaşı var,

Hazırcavab uşaqdır.
Həvəsi var yazmağa,
Oxumaqda qoçaqdır.

Şeirin sonunda məktəbliyə “Hümmət” kəlməsinə uyarlığı yetən suallar ünvanlanıb. Bu sualların cavablandırılması sayəsində şagird öyrənir ki, “Hümmət” sözü “cəhd”, “səy”, “qeyrət”, “əl-ələ verib çalışmaq”, “təşəbbüs” mənalarını verir. “Hümmət etmək” kömək etmək, yardım etmək, əlindən tutmaq anlamlarında işlənir. “Hümmət” sözü vasitəsilə şagird başqa informasiya da əldə etmək imkanı qazanır. Məlum olur ki, 1904-cü ildə Məhəmməd Əmin Rəsulzadə və onun dostları tərəfindən “Hümmət” Sosial-Demokrat Müsəlman Təşkilatı yaradılıb. Təşkilatın rəhbəri əvvəlcə M.Ə.Rəsulzadə olub, sonra Nəriman Nərimanov. Bundan əlavə, təşkilatın “Hümmət” adında qəzeti də çıxıb. İlk nömrəsi 1904-cü ilin oktyabrında nəşr olunub. Qəzetin cəmi 6 nömrəsi işıq üzü görüb. Qəzet 1905-ci lin fevralında bağlanıb...

Ədəbiyyatşünasların ümumi qənaətinə görə, qafiyə şeirin gözəlliyini artıran, poetik nümunəyə musiqilik, oynaqlıq, rövnəqlik gətirən vasitə, Rafiq Yusifoğluya görə, hər hansı fikri ifadə edən misraların bədii, emosional təsirini artıran, poetik əsəri zənginləşdirən bədii ünsürdür. “Qafiyə şeirin məzmununun açılmasını, bədii-məntiqi və obrazlılığın güclənməsini şərtləndirir” [2. s.222]. Bu məzmunda “Ağıllı Gülər” şeirində “sərçəcik”, “cik-cik” təkrar səsləri diqqət çəkir. Müəllif “sərçəcik” (4 dəfə) və

"cik-cik" (4 dəfə) epiforalarından istifadə etməklə şeiri emosional tələffüz axarına salmış, təkrar yox, təkrir sayəsində yaranan ritm, intonasiya və bunların ahəngindən formalaşan ümumi ahəng təqdim olunan əsərə poetiklik bəxş etmiş, oxucunun (burada məktəblinin) yaddaşına asanlıqla "yazılmasına" yardımçı olmuşdur.

Bizim balaca Gülər,
Həm ağlayar, həm gülər.
Günlərin bir günündə,
Soyuq  qış səhərində,
Gülər çölə çıxanda,
Əl-üzünü yuyanda
Gördü kiçik sərçəcik.
Sərçə edirdi "cik-cik".

Gördü üşüyür sərçə,
Bayırda qalıb təkcə.
Gülər istədi getsin,
Gedib çörək gətirsin.
Elə bu an sərçəcik,
Yenə elədi:
"Cik-cik".

Gülər tez evə qaçıb,
Anadan çörək alıb

Gəlib eyvana, ovdu.
Yanına su da qoydu.
Yenidən  edib cik-cik,
Ora qondu sərçəcik.

Əvvəl çörəyi yedi,
Sonra da suyu içdi.
Bir dəfə sağa baxdı,
Bir dəfə sola baxdı.
Təşəkkür etdi:
“Cik-cik”
Uçub getdi sərçəcik.

***

**Nəticə:** Z.Ustacın uşaq şeirləri haqda son olaraq bu qənaətə gəlmək olar ki, nədən, yaxud kimdən yazmasından asılı olmayaraq təqdim etdikləri yeni görünür, diqqətə çatdırılanlar təbiidir, səmimidir, ürəyəyatımlıdır, obrazlar elə xarakterizə olunur ki, onlar haqqında deyilənlərin həqiqət olduğuna şəkk-şübhən qalmır. Bunun bir səbəbi əgər yazıçının intellektidən irəli gəlirsə, digər səbəbi müəllifin ixtisas, peşə yönümü ilə izah oluna bilər. Axı Zaur Ustac müəllimdir, uşaq dünyasına hamıdan çox bələdliyi yetən bir ixtisas sahibi.

## Ədəbiyyat siyahısı:

1. Əlimirzəyev Xalid. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı-“Elm və təhsil” 2011, 416 səh.
2. Hacıyev Abbas. Ədəbiyyatşünaslığın əsasları. Bakı-2009, 370 səh.
3. İbrahimov Mirzə. Ədəbi qeydlər. Bakı-Azərbaycan Dövlət nəşriyyatı-1970, 300 səh.
4. Ustac Zaur. Gülüzənin şeirləri. Bakı-2021, 112 səh.

**Dərc edilib:**

**1.yazyarat.com 27 yanvar 2021.**
https://yazyarat.com/yazi/tədqiqat-zaur-ustacin şeirlerinde-uşsü - problemleri;

***2.İlk xəbər. 27 yanvar 2021*.**
https://ilkxəbər.orq/news/php?id=51389;

**2. *Müstəqil.Az* 27.01.2021.**
https://www.mustaqil.az/?p=75669;

# GÜLÜZƏNİN ŞEİRLƏRİ

**Yenidən işlənmiş,**
**yeni təqdimatda,**
**yeni tərtibatda.**

# HƏRFLƏRƏ AİD ŞEİRLƏR

| | | | |
|---|---|---|---|
| A | B | C | Ç |
| D | E | Ə | F |
| G | Ğ | H | X |
| I | İ | J | K |
| Q | L | M | N |
| O | Ö | P | R |
| S | Ş | T | U |
| Ü | V | Y | Z |

## ƏLİFBAM

A, Be, Ce, Çe, De, E, Ə
Nə gözəl yaraşır
Şirin dilimə.
Fe, Ge, Ğe, He, Xe, I, İ
Bəzəyir, sevdirir
Şirin dilimi.
Je,Ke,Qe, eL, eM, eN, O
Az qaldı unudum
Ka da var baho.

Ka da çox vacibdir
Bilməli hamı.
Kələmlə kartofu
Seçməli hamı.

Ö-sü var, Pe-si var, eR-i var bunun,
Se-si var, Şe-si var, Te-si var bunun.
U-su var, Ü-sü var, Ve-si var bunun,
Sonunda, Ye-si var, Ze-si var bunun.

♦♦♦

**“ A ”**

A ilə Ana deyə,
Aləmə səs salırıq.
Azərbaycan sözünə
A ilə başlayırıq.

***

Ata, Ana tək sözlər
A-nın nəfis ilməsi
A-dan Z-yə hərflər
Əlifbanın töhfəsi. –

***

Sənsən mənim vüqarım,
Mənim doğma diyarım,
Nə gözəlsən, Ağdamım!

Onlarla qəhrəmanın,
Yüzlərlə ziyalının,
Vətənisən, Ağdamım!

♦♦♦

**“ A ” və “ N ”**

Baxın, ana sözünə
Hərfləri kim sayar?
N tək durub ortada
Hər tərəfdə bir A var.

♦♦♦

**“ B “**

1 ilə  3 birləşib,
Birlikdə “B” oldular.
Bakı sözün başlayıb,
Kitabı qurtardılar.
***
“Bahar”, “bayram” sözündə
B hamıdan birinci.
Əlifbamda ikinci,
Bilikdə də birinci.
♦♦♦

**“ C “**

Sancağımı bəzəyən
Hilala bənzəyirsən!
“Azərbaycan” sözünü
Can ilə bəzəyirsən!
***
Ana da balasına
Can deyə cavab verir.
Cahu-cəlal sözünə
C hərfi rəvac verir
***
Ya canavar, ya ayı,
Ya kəpənək, ya arı,

Hərəsi bir canlıdır,
Biz qoruyaq onları.

♦♦♦

**“ Ç “**

Ç hərfi çobanla
Lap çoxdan dostluq edir,
Ç - li çomaq həmişə
Çobanın əlindədir.

***

Çəməndəki keçisi,
Ç -li çayırı çeynər,
Arxacdakı çəpişlər
Çeşmələrdən su içər.

***

Ç -li alaçıq, çadır
Çöldə çobanın evi,
Çoban yaman çox sevir
Ona görə bu hərfi!

***

Koroğlunun oylağıdır,
Çənli, dumanlı Çənlibel.
Mərd oğullar oymağıdır,
Andlı, amanlı Çənlibel.

♦♦♦

**“ D “**

Dəvənin damı damdı,
Durdu, damı dağıtdı.
Dəvətikanı dərib,
Dammayan dam düzəltdi.

***

Qarğanı, qurbağanı
Yaxşı tanıyır hamı.
Darğa sözün eşidib,
Mənasın bilən varmı?

***

Dan yerində
Günəş doğur.
Dan səmanın
Al donudur.

♦♦♦

**“ E “**

E darağa oxşayır,
Dişi tökülüb, amma.
Üççə dişi qalıbdı,
Onunla çox oynama!

♦♦♦

**“ Ə “**

Əlifbam əlimdədir,
“Ə“ hərfi tanışdır.

Gözümün önündəki
Əlim  “Ə“-lə başlayır.

♦♦♦

**“ N “**

Nənədə iki “Ə” var
İki “Ə”-li nəvə də.
Babam “Ə”-dən küsəndə,
Ona deyirəm “dədə”.

♦♦♦

**“ Ə ” və “ L ”**

Ələklə  xəlbir,
Girmişdi bəhsə.
Lələkdən fayda,
Görməyib kimsə.

♦♦♦

**“ Ə ” və “ T ”**

Ətə, qəndə, düyüyə
Bilin, ərzaq deyirlər.
Güclü, sağlam  olanlar
Tərəvəz çox  yeyirlər.

♦♦♦

**“ F ”**

Fatı nənə bişirdi
Yağlı fəsəli, fətir.
Fuad yedikcə, dedi:
-Nənə, birin də gətir.

♦♦♦

**“G“**

Hər Günəşin doğması
Yeni günü başlayır,
Günəş qürub edəndə
Demək, gün başa çatır.

***

Günəş özü möcüzə
Sirr dolu varlığıyla,
“Bir gün” isə mesajdır
Dünyaya, insanlığa!

♦♦♦

**“ Ğ “**

Dağ sözündə üçüncü,
Ağ dözündə ikinci.
Bu hərfin adı nədir,
Kim söyləyər birinci.

**Yaxud,**

Dağ sözündə üçüncü,
Ağ dözündə ikinci.

Kim deyər adı nədir,
Heç vaxt olmur birinci.

♦♦♦

**“ H “**

Kim tanıyır, Hələbi?
Hələb qədim şəhərdi.
Bizi ora bağlayan
Görən hansı səbəbdi?

♦♦♦

**“ X “**

Çarpaz iki xətt çəkib,
Adını “X” qoydular.
Xəbər çatdı, xoruza
Dedi, gecikib onlar.

***

Həm dənizdi, həm də göl
Xəzər təkdi dünyada.
Qoynunda bir şəhər var,
O da ilkdi dünyada.

**SUAL:**

♦ *Xəzər dənizində qəhrəman neftçilərimizin yaşayıb, işlədikləri şəhərciyin adı nədir?*

♦♦♦

**“ I “**

I hərfi sadədir
Həm də asan yazılır.
Onunla söz başlamır
Bakı sözü qurtarır.

♦♦♦

**“ İ “**

İldırım çaxır,
Göy guruldayır.
Yağış yağanda
Hamı islanır.

♦♦♦

**“J “**

J hərfi utancaq,
Həm də bir az tənbəldi.
Bu üzdən dostu azdı,
İşi bir az əngəldi.

**SUAL:**

♦*”İşi əngəl olmaq” deyəndə nə başa düşürsünüz?*

♦♦♦

**“ K “** (çingiltili samit)

Sən ey dağlar, qoca dağlar,
Əzəmətli, uca dağlar.

Əzəmətli Kəpəz dağı,
Kəpəz dağın xoş yaylağı.

***

Qoynunda Göygölün vardır,
Ətrafdakı ormanlardır.
Möhtəşəmsən, mehribanım,
Nə gözəlsən, Kəpəz dağım!

***

Kirpi kələmlə bir gün
Gəldi kəllə-kəlləyə.
Dedi, çəkil yolumdan,
Kələm, güldü kirpiyə.

Sonra, gördü ciddidi
Dedi, əkil başımdan.
Bura mənim yerimdi,
Bir də keçmə qarşımdan!

♦♦♦

**“ K “ (kar samit)**

Kartofla, kök dözməyib,
Yetişdilər köməyə.
Kirpi başa düşdü ki,
O, məcburdu dönməyə.

***

Əlifbamda bu hərfin

Yeri tamam başqadır.
Kartof, kələm bir başqa,
Məktəb tamam başqadır.

**TAPŞIRIQ:**

♦ *"Kartof", "kələm", "məktəb" sözlərini tələffüz etdikdə "K" hərfinin necə fərqli səsləndiyinə diqqət yetirməli.*

♦♦♦

**" Q "**

Qu quşu qurbağanı
Gördü göl qırağında
Qurbağa oxuyurdu,
Kefində, damağında.

Qu dedi, quruldama,
Xoşum gəlmir, qurbağa!
Matı-qutu qurudu,
Lap, karıxdı qurbağa.

***

Qarğa ilə qurbağa
Getdilər qonaqlığa,
Sağsağanın toyuydu
Düşmüşdülər bolluğa.

Söz verildi qarğaya,
Sağsağan əhsən dedi.
Qurbağa başlayanda,
Bəyin  ürəyi getdi.

♦♦♦

**“ L “**

L -nı yazmaq asandı,
Asan da yadda qalır.
Kim tanımır, tanısın
Lap çomağa oxşayır.

♦♦♦

**“ M ”**

Mürəkkəb gülüb,
Girişdi bəhsə.
Lələyi belə,
Üzməsin kimsə!

♦♦♦

**“ N “**

N - iyirminci hərfdir,
Düşüb qabağa amma.
Çünki, onu bilməsək,
Yaza bilmərik ana.

***

N - nənəmin ninnisi,
N - nənəmin nehrəsi,
N - nənəmin şipşirin
Noğul kimi nəvəsi.

♦♦♦

**"O"**

O yumru hərfdir,
Oxşayır yumurtaya.
Yazmağı lap asandı,
Qələmi kim fırlaya.

***

Orxon çox qədim
Sözdü bilirəm.
Böyüyən kimi
Öyrənməliyəm.

♦♦♦

**" Ö "**

Çıxıb qunun önünə
Özünü öydü ördək,
Göldə məndən gözəli
Varmı, bir deyin görək!?

♦♦♦

**“ P ”**

Səliqəli geyinir,
Məktəbdə hər bir uşaq.
Pencək, palto geyirik,
Başa qoyuruq papaq.

♦♦♦

**“ R ”**

Dülgərin işin
Görər rəndələr,
Rəngsaz nə ilə,
Boyar, rəngləyər?

♦♦♦

**“ S “**

Saatsaz saatları,
Aşıq sazı sazladı.
Saatlar işləməyə,
Aşıq sözə başladı.

Neçə saat durmadan,
Aşıq söylədi, dastan.
Saatsaz yuxuladı,
Səs gəlmədi saatdan.

♦♦♦

**“ Ş ”**

Bir çiçək var, Şehçiçəyi,
Cücüləri tutub “yeyir”.
Kitablar çox maraqlıdır,
Bunu oxuyanlar bilir.

♦♦♦

**“ T ”**

Tapançamı götürdüm,
Tüfəngi də ver mənə.
Tankı, topu sazlayım,
Hücum edim düşmənə!

♦♦♦

**“ U ”**

Uzunqulaq bir ulaq
Qanad açıb uçurdu.
Burnu dəydi ulduza,
Durub gördü, yuxudu

♦♦♦

**“ Ü “**

Üzdüm üzümü,
Üzdüm, özümə!
İstəyirsənsə,
Gəl, üz özünə!

***

Üzüm qurusu
Üzümdən  dadlı,
Qaldıqca olur
Daha faydalı!

♦♦♦

**“ V ”**

Vətən varlığımdır,
Vətən vüqarım!
Hər gün gözəlləşir,
Şanlı diyarım!

♦♦♦

**“ Y ”**

Yaşıl yarpaq,
Həyat rəmzi.
Bir yarpağın
Yox əvəzi!

♦♦♦

**“ Z ”**

Zəhmətkeş babaların
Vətənidir Zəngəzur.
Əsir düşən torpağım,
Vətənimdir Zəngəzur!

# RƏQƏMLƏRƏ AİD ŞEİR-TAPMACALAR



**“ 1 “**

Asan bir sual verim,
İnan, yoxdur beləsi.
Üçdən iki çıxanda
Söylə, qalır neçəsi?

***

İndi bir az da
Çətinləşdi iş.
Neçə azalsa
Altı,
olar beş?

♦♦♦

**“ 2 “**

Hansı qoçaq tez deyər,
Söyləyin ay uşaqlar?
Xor-xor yatan pişiyin,
Neçə xumar  gözü var?

***

Xoruz tək ayaq üstə
Dayanmışdı bayaqdan.
Neçəsin gizlətmişdi,
Xoruz neçə ayaqdan?

♦♦♦

**“ 3 “**

Kvadrat dörd bucaq,
Dairə bütün olar.
Üçbucağın bəs onda,
De, neçə bucağı var?

***

Yaman hazırcavabdır,
İndi bütün uşaqlar.
Qarlı qışı saymasaq,
Onda neçə fəsil var?

♦♦♦

**“ 4 “**

Dünyanın dörd tərəfi,
Damın dörd dayağı var.
Ən böyük, nəhəng filin
De, neçə ayağı var?

♦♦♦

**“ 5 “**

Eşitdim, öyrənmisən
İndi daha saymağı,
Adamın bir əlində
Neçə olur barmağı?

***

Həftənin  iki günün
Dincəlirdi uşaqlar.

Bəs onda neçə günü
Məktəbə gedir onlar?

♦♦♦

**“ 6 “**

Cavabını kim verər,
Belə asan sualın;
Dörd ayağı, qulağı
Neçə edər ulağın?

***

İldə on iki ay var,
Bunu yaxşı bilirik.
Bəs onda yarım ildə,
Neçə ay var, bilirik?

♦♦♦

**“ 7 “**

Bazar günü gələndə
Çox sevinir uşaqlar.
Bəs kim indi tez deyər,
Həftədə neçə gün var?

***

Baxıram hamı bilir,
Aran nədi, nədi dağ.
İndi mənə kim deyər,
Neçə hərf “QARABAĞ”?

♦♦♦

**“ 8 “**

At yanında balası,
Gəzirdi otlaqları.
İkisinin bir yerdə
Neçədir ayaqları?

***

Mahirin on yaşı var,
Ondan kiçikdir Anar.
Anar iki yaş kiçik,
Onun neçə yaşı var?

♦♦♦

**“ 9 “**

İki əldə bir yerdə
On dənədir barmağım.
Bax, birini qatladım,
Neçə qaldı qoçağım?

***

Arifin səbətində
Var idi beş alması.
Kim deyər neçə olar,
Dördün versə anası?

♦♦♦

**“ 10 “**

İnan ki, çətin deyil
Düşünsən, asan olar.

Bir əldə, bir ayaqda
Cəmi neçə barmaq var?

***

Ağıllısız bilirəm,
Deyin görüm, qoçaqlar.
“AZƏRBAYCAN’ sözündə
Cəmi neçə hərf var?

# İLİN FƏSİLLƏRİNƏ VƏ AYLARA AİD ŞEİRLƏR



# FƏSİLLƏRƏ AİD ŞEİRLƏR

Gəlin birlikdə sayaq,
Görək neçə fəsil var.
Yaz, Yay, Payız, bir də Qış,
Bunu bilməyə nə var!

♦♦♦

**YAZ**

Yazda açır çiçəklər,
Nəğmə oxuyur quşlar.
İki adı var onun,
Həm də deyirik Bahar.

♦♦♦

**YAY**

Yayda dərslər qurtarır,
Bağa yollanırıq biz.
Kölgədə dincəlirik,
Çoxlu oynayırıq biz.

♦♦♦

**PAYIZ**

Yay başa çatan kimi,
Sarı don geyir bağlar.
Payızı görən kimi
Ağ papaq qoyur dağlar.

***

Əsir küləklər,
Payız olanda.
Yağır yağışlar,
Payız olanda.

Payızın gəlişilə,
Hər yan tamam dəyişir.
Çılpaq qalır ağaclar,
Meyvələri  yetişir.

**SUAL:**

♦ Çılpaq dedikdə nə başa düşürsünüz?
♦ Payızı başqa necə təsvir edə bilərsiniz.
♦ Payızda hansı meyvələr yetişir?
♦ Payızın başqa adı da varmı?

Hamımız Payız deyir,
Əslində adı Güzdü.
Ona Payız deyənə,
Payız dodağın büzdü.
♦♦♦

**QIŞ**

Biz sevirik, qarlı Qışı,
Sevinirik qar yağanda.
Qorxutmur qarı, yağışı,

Oynayırıq qar yağanda.
Qarlı Qış gəlib qonaq,
Çox sevinir uşaqlar.
Qartopu oynayırlar,
Sürüşürlər qoçaqlar.

## AYLARA AİD ŞEİRLƏR

İldə on iki ay var,
Yanvar, Fevral, Matr, Aprel.
Sərin May, isti İyun,
Artıq yarı oldu il.

***

İyul, sonra da Avqust,
Sevimli Sentyabr.
Oktyabr, Noyabr,
Sonunda  da Dekabr.

***

Yanvar, Fevral, Mart
İlin ayları.
Sevirəm Martı,
Bol bayramları.

**SUALLAR:**

♦ Yanvar, Fevral və *Mart neçənci aylardır?*
♦ *Bu aylarda hansı bayramlar var?*

♦♦♦

## YANVAR

Yanvar birinci aydır,
Uşaqlar sevir onu.
Tətildə qartopu var,
Kim sevməz bu oyunu?

***

Yanvarla başlayır il,
Ən birinci o gəlir.
İlin barın, bəhərin
Ağ qarla o gətirir.

♦♦♦

## FEVRAL

Fevral, ikinci aydır.
Qar yağır, sular donur.
Çöldə ac qalan quşlar,
Pəncərələrə qonur.

***

Fevralda donur hər yan,
Çaylar, bulaqlar, göllər.
Xocalı düşür yada,
Qara bağlayır ellər.

♦♦♦

## MART

Martda sevinir hamı,
Açır Bənövşə, Nərgiz.

Səməniylə, Kosayla
Tonqalla  gəlir Novruz.

♦♦♦

**APREL**

Bilən varmı uşaqlar,
Dördüncü hansı aydır?
Ondan əvvəl Mart gəlir,
Maysa, ondan sonradır.

***

Daha torpaq isinib,
Ağaclar yaşıllaşır.
Artıq səmada çoxdan
Qaranquşlar dolaşır.

♦♦♦

**MAY**

Ən gözəl bir ay gəldi,
Yurdumuza May gəldi.
Dağlarda qar əridi,
Çaylar yenə gücləndi.
May sevimli bir aydır,
Hər yan çalır, çağırır.
Mayda çiçəklər açır,
Hər yana ətir saçır.

May ən gözəl bir aydır,
Bu ay bayram ayıdır.
Hər yan yenə bəzənir,
Uşaqlar hey şənlənir.

***

May sevimli bir aydır,
Hər yan çalır-çağırır.
Bu ay bizim ayımız
Azərbaycan ayıdır!

**SUAL:**

♦ Şair May ayına nə üçün
Azərbaycan ayı deyir?
♦ Mayda hansı bayramlar var?

♦♦♦

## İYUN

İyun altıncı aydır,
Bu ay il yarı olur.
Bu ay gecələr qısa,
Gündüzlər uzun olur.

♦♦♦

## İYUL

“Yayın oğlan çağıdır”,
İyul belə adlanır.

Hər yerdən buxar qalxır,
Sanki, torpaq odlanır.

**SUAL:**

♦ Buxar nədir?

♦♦♦

**AVQUST**

“Qora bişirən aydır”,
Avqust belə tanınır.
Alma, armud sulanır,
Şanı, əncir ballanır.

♦♦♦

**SENTYABR**

Xoş gəldin, Sentyabr!
İndi üzümüz gülər.
Çantamız xoşbəxt olar,
Kitab-dəftər sevinər!

***

Sentyabr gələndə
Çox sevinir uşaqlar.
Bilik günü yetişir,
Məktəbə gedir onlar.

♦♦♦

## OKTYABR

Oktyabr gələndə
Gəlir payız havası.
Qozu, narı, alması,
Boldu sarı heyvası.

♦♦♦

## NOYABR

Noyabr soyur hava,
Tez-tez yağır yağışlar.
Həyətlərdə, bağlarda
Civildəşir ac quşlar.

♦♦♦

## DEKABR

Dekabr gələr-gəlməz,
Əsir soyuq küləyi.
Hədən Şaxta Babanın
Qar ələyir, ələyi.

# SƏTİRLƏRDƏ UŞAQ OBRAZLARI



## BIR AD BIR ŞEİR

### VAHİD

*(Şəhid Vahid Abbasovun xatirəsinə)*

Vahid getdi əsgərə,
Həmişə dedi: - "Oldu!"
Postunu tərk etmədi,
Vətənçün şəhid oldu.

**SUAL:**

♦ Vahid adı hansı hərflə başlayır?
♦ Vahid Abbasov kimdir?
♦ Kimlərlə döyüşdə və hansı döyüşdə şəhid olub?
♦ Şəhid olmaq nə deməkdir və kimlərə "şəhid" deyilir?
♦ Vətən uğrunda şəhid olan hansı Milli Qəhrəmanlarımızı tanıyırsınız?

♦♦♦

### TUNCAY

Tuncay topu tulladı,
Tutu, topu tut görək!
Top-top mənə yaraşmaz,
Mən tankçı olum gərək!

♦♦♦

**HÜMMƏT**

Hümmətin beş yaşı var,
Hazırcavab uşaqdır.
Həvəsi var yazmağa,
Oxumaqda qoçaqdır.

**SUAL:**

♦ "Hümmət" sözünün mənası nədir"
♦ XX əsrin əvvəllərində "Hümmət" adında təşkilat olub. Həmin təşkilat hansı məqsədlə yaradılmışdı?

♦♦♦

**ÜLKƏR**

Ülkər adıyla
Öyünür hər dəm.
Mən daha parlaq,
Zərif, inciyəm!
Günəşsə, susur,
Danışmırdı heç.
Bacı, bacıyla
Dalaşarmı heç!?

**SUAL:**

♦ Ülkər nəyə işarə edir?
♦ Ülkər, Günəş adları haradan götürülüb?

♦♦♦

**YUSİF**

Yabını yəhərləyib,
Yusif mindi, dalına
Yellətdi, yorğa getsin
Bərk yapışdı yalına.

Yabı heç tərpənmədi,
Bir az əydi boynunu.
Çəkəndə yüyənini
Oynatdı quyruğunu.

♦♦♦

**İLQAR**

İlqar sevir, idmanı
Hey hoppanır ip üstdən,
İz axtarır bağçada,
O, tez tapır itindən.

♦♦♦

**QAÇAY**

Qaçayın kefi qaçıb,
Bayaqdan hey düşünür.
Quşlar indi ac qalıb,
Pişiklər də üşüyür.

♦♦♦

**MALİK**

Malik məktəbə
Bu ildən gedir.
Müəllim ona
Ancaq beş verir.

Heç bir məsələ
Deyil qaranlıq.
Malik düşünür,
Yalnız bir anlıq.

♦♦♦

**UĞUR**

Uğur baxıb göylərə,
Dedi, usta olacam!
Uca bir qüllə tikib,
Ulduzlara çatacam!

♦♦♦

**ŞAMİL**

Şamil şamları,
Qoydu  şamdana.
Çərşənbə günü,
Qalsın axşama.

♦♦♦

**VAQİF**

Vaqifin bir vərdişi
Hər şeydən vacib idi,
Vaqonda da, evdə də
Mütləq var-gəl edirdi.

♦♦♦

**PAŞA**

Paşa, əlində maşa
Hücum çəkdi pişiyə,
Burda pişik özüməm
Haydı çıxdın eşiyə!

♦♦♦

**HƏSƏN**

Həsən çıxdı hasara,
Nə yaman hündür imiş.
Hop eləyib, hoppandı,
Hündürdən hündür imiş!

♦♦♦

**NAĞI**

Nağı maraqla baxdı,
Vitrindəki qoğala.
Nəsə heç oxşamırdı,
Nağıldakı Qoğala.

♦♦♦

**JALƏ**

Jalə aldı jurnalı
Baba, ver baxacağam!
Böyüyəndə istəsəm,
Jurnalist olacağam!

♦♦♦

**ZAHİR**

Zahir düzəltdi,
Balaca gəmi.
Dedi: - Bu gəmi,
Mən də gəmiçi.

# İKİ VƏ DAHA ARTIQ ŞƏXS ADINA ÜNVANLANAN ŞEİRLƏR

**NATİQ və TOFİQ**

Natiq tutdu Tofiqi
Əlində tapançası.
Tofiq təslim olmuşdu
Yer yox idi qaçası.

**SUAL:**

♦ "Tapança" sözü hansı hərflə başlayır?
♦ Tapançadan hansı məqsədlə istifadə olunur?

♦♦♦

**ZÜMRÜD, ZAMİN və ZƏHRA**

Zanbağı görən kimi
Zümrüd dedi Zaminə:
Paxıl deyilsən əgər,
Zanbağını ver mənə.

Zəhra qarışdı işə,
Sonra dedi, bu qədər
Tənbəl deyilsən əgər,
Zəhmət çək, özün becər!

**SUAL:**

♦ Zəhra işə qarışmasaydı, nə olacaqdı?

♦ Zəhra Zümrüdə "Tənbəl deyilsən əgər // Zəhmət çək özün becər" kəlmələri ilə nəyi başa salmaq istəyir?

♦ Sinfinizdə, yaxud məhəllənizdə Zümrüd təbiətdə uşaqlar varmı?

♦ Varsa, digər yaşıdlarınız onun bu hərəkətinə necə baxır?

♦♦♦

**ÖMƏR və ƏSMƏR**

Söhbət edirdi,
Ömərlə Əsmər.
Ömər dedi ki,
Olacaq əsgər!

**SUAL:**

♦ Əsgər olmaq nə deməkdir?

♦ Sən  böyüyəndə kim olacaqsan?

♦♦♦

**FUAD və FƏRİD**

Fuad Fəridlə
Girmişdi bəhsə,
Hansı daha tez

Gələcək dərsə.

♦♦♦

**LALƏ və LEYLA**

Lalə dostların yenə
Topladı ətrafına,
Axı, mən nənəmgilə
Getmişdim,
Lənkərana.
Orda bir ağac vardı,
Meyvələri sapsarı.

Leyla dadına baxdı,
Büzüşdü dodaqları.

♦♦♦

**RAHİB və ƏKBƏR**

Rahib Əkbərə
Saymaq öyrədir.
Bir, iki, …, dörd…
Rəqəmdir deyir.

Əkbərsə gülür,
Uğunur anlıq.
Hansın unutdun?
Niyə dayandıq?

♦♦♦

**ETİBAR və EHTİRAM**

Etibarla Ehtiram
Yazdılar belə elan:
“Qaranquşlar itibdir,
Varmı xəbəri olan?”

**SUAL:**

♦ Qaranquşlar nə vaxt gələcək?
♦ O hansı quşdur ki, heç vaxt yaşadığı yeri dəyişmir

♦♦♦

**RAUL və RƏNA**

Raul əlində fırça,
Yanaşdı molbertinə,
Rənglər rəngə qarışdı,
Oxşatdı raketinə.

Rəna görəndə rəsmi,
Dedi, qəşəng rəndədi
Hətta qanadı da var,
Sanki, uçacaq indi...

♦♦♦

## JALƏ, DAMLA, ŞƏBNƏM və YAĞMUR

Jalə, Damla və Şəbnəm
Yola getmirdi heç vaxt.
Bir gün Yağmur dillənib,
Hamısını qoydu mat.

**SUAL:**
♦ *“Mat qoymaq” deyəndə nə başa düşürsünüz?*

# TAM və BİTKİN ŞEİRLƏR

## OYANIN, BAHAR GƏLİB

Yenə də gəldi Bahar,
Hər yan oldu laləzar,
Söylədi qaranquşlar:
- Oyanın, gəlib Bahar!
Ağaclar açdı çiçək,
Hər yan oldu, gül-çiçək,
Söylədi qaranquşlar:
- Oyanın, gəlib Bahar!
Çaylar yenə də daşdı,
Çəmənlər yaşıllaşdı,
Söylədi qaranquşlar:
- Oyanın, gəlib Bahar!

♦♦♦

## AĞILLI GÜLƏR

Bizim balaca Gülər,
Həm ağlayar, həm gülər.
Günlərin bir günündə,
Soyuq  qış səhərində,
Gülər çölə çıxanda,
Əl-üzünü yuyanda
Gördü kiçik sərçəcik.

Sərçə edirdi “cik-cik”.

Gördü üşüyür sərçə,
Bayırda qalıb təkcə.
Gülər istədi getsin,
Gedib çörək gətirsin.
Elə bu an sərçəcik,
Yenə elədi:
“Cik-cik”.

Gülər tez evə qaçıb,
Anadan çörək alıb
Gəlib eyvana, ovdu.
Yanına su da qoydu.
Yenidən  edib cik-cik,
Ora qondu sərçəcik.
Əvvəl çörəyi yedi,
Sonra da suyu içdi.
Bir dəfə sağa baxdı,
Bir dəfə sola baxdı.
Təşəkkür etdi:
“Cik-cik”.
Uçub getdi sərçəcik.

♦♦♦

## BALACA REKLAMÇI

Bir bala var, adı İpək,
Hələ körpə, hələ tülək,
Gül ağzından lümək-lümək,
Bal tökülür, qalır yemək,
Hər kəlməsi yağlı dürmək.
Bir bala var, adı İpək,
Teli qıvrım, dəyməz külək,
Söz boxçası ilmək-ilmək,
Muncuq kimi düzər İpək,
Vergül qəmzə, nöqtə gülmək.

Bir bala var, adı İpək,
Özü qönçə, sözü çiçək,
Reklam edir gözəl-göyçək,
Heyranı var Ustaclıtək,
Reklamçıdır bizim İpək.



## KİTABIN İÇİNDƏKİLƏR

Tədqiqatçı sözü ........................................................ 3
Hərflərə aid şeirlər.................................................... 65
Rəqəmlərə aid şeir-tapmacalar .................................... 81
İlin fəsillərinə və aylara aid şeirlər ............................... 87
Sətirlərdə uşaq obrazları ........................................... 97

## ÖYRƏDƏNLƏR ÜÇÜN ƏLAVƏ QAYNAQLAR

2019-cu ildə AR Təhsil Nazirliyi tərəfindən orta məktəb və liseylərin hazırlıq qrupları üçün nəzərdə tutulmuş "Məktəbə hazırlaşırıq" adlı 4 hissəli dərsliyin 2 hissəli metodik vəsaiti

"Məktəbə hazırlaşırıq"– I – HİSSƏ

"Məktəbə hazırlaşırıq"– II – HİSSƏ

Zaur USTAC

(Mustafayev Zaur Mustafa oğlu)

“GÜLÜZƏNİN ŞEİRLƏRİ”

*(Metodik vəsait)*

Redaktor: Ayətxan Ziyad.

“Ustac.Az” nəşrləri.

Üzqabığının müəllifi: Tuncay Şəhrili.

Kitab “Yazarlar”-ın kompüter mərkəzində yığılıb.

Təşkilati dəstək: www.ustac.az *(Qeyri- kommersiya)*

Qiyməti: Pulsuz.

Çapa imzalandı: 14.02.2021.

Sayı: 100 əd. (Elektron variantı var.)

**WWW.YAZARLAR.AZ və WWW.USTAC.AZ**
Əlaqə:(**+994**) 70-390-39-93, zauryazar@mail.ru

# QEYDLƏR




Üzqabığının müəllifi: Tuncay Şəhrili - Mustafayev